*Dilarə ADİLGİL*



# ŞƏRQDƏ 36 GÜN*

**Səfər marşrutumuz Yaxın Şərq (Ərəbistan yarımadası) və Şimali Afrika - bizim xalq üçün bir qədər ekzotik sayıla biləcək İordaniya Haşimilər Krallığı və Misir Ərəb Respublikasına idi.**

**Bu bölgəyə Yaxın Şərq adını avropalılar veriblər, özlərinə yaxın olduğu üçün... Yaxın Şərq, biz azərbaycanlılar da daxil olmaqla, üç yüz altmış milyon müsəlmanın evi sayılır. Bütün planeti neftlə təmin edən əsas region da elə Yaxın Şərq ölkələridir.**

**Avqustun ikisi səhər saat on ikidə ümummilli liderimizin adını daşıyan möhtəşəm hava limanımızdan bibim qızı Gülnara və onun qızı Mələklə birlikdə yola duşdük. Birbaşa reys olmadığı üçün Dubaya, oradan da İordaniyanın paytaxtı Amman şəhərinə uçduq.**

* * *

Kursi hündürlükdə yerləşən, heç bir iaşə obyekti olmayan, səliqəli, bahalı villaları, dördmərtəbəli ağappaq apartmanları olan, ərazisində yalnız iki məscid, bir də Azərbaycan səfirliyi yerləşən sakit, qorunan, demək olar ki, qapalı bir şəhərcikdir. Aşağıdan baxdıqda dağın başında görünən Kursi çar Soltanın («Çar Soltan haqqında nağıl» - D.A.) oğlu knyaz Qvidonun şəhərciyinə oxşayır. Axşamlar Kursinin Vadi Seyr adlanan nöqtəsindən şəhərin gecə mənzərəsinə tamaşa etmək çox xoşdur, amma nəbadə çox yaxına gəlməyəsən. Çünki yüksəklikdən şəhər mənzərəsinə yad olan vahiməli uçurumlar, yarğanlar və maşınların şütüdüyü dolaylar görünür.

Onlar villalarının ətrafına üç metr hündürlüyündə hasarlar çəkmirlər. Axşam çağı şəhərcikdə gəzinərkən eyvanlarında, güllü-çiçəkli həyətlərində dincələn, noutbukla işləyən uzun ağ əbalı ərəbləri müşahidə etmək mümkündür. Mənim tərəfimdən baxdıqda qarşı tərəf çox sakit, dərdsiz-qəmsiz, qayğısız görünür, elə bil, dünyanın və həyatın keşməkeşli halının bunlara heç bir aidiyyatı yoxdur… Hərəsinin də qapısında Filippindən olan bir-iki qul-

* - *İxtisarla*

luqçusu var. Sən demə, bir xalq olaraq alınlarına xidmətçilik yazılmış bu zavallılar ərəb ölkələrinə işləməyə gəlmək üçün illərlə növbəyə dayanırlar, növbələri çatanda isə ilin-günün bu vaxtında pasportlarını əllərindən alıb (öz razılıqları ilə və əlbəttə ki, məcburiyyət və çarəsizlik üzündən) onları qul kimi satın alırlar, məsələn, dörd min dinara... (beş min yeddi yüz dollara). Xırdaca, arıq, qaralıqdan göyə çalan sifətlərində yalnız gözləri işıldayan və yaşı bilinməyən bu «rəngli» qadınlar böyük evin ağır yükünü daşıyır, axşamlar küçədə ağalarının uşaqlarını, nəvələrini gəzdirir, heç nə ifadə etməyən gözləri ilə ətrafa baxırlar...

Mən adı yaxın, özü uzaq olan bu bu ərəb ölkəsini ilk növbədə onun simvolu olan Petra ilə tanıyırdım. İordaniyanı Fələstin hesab edirdim, əslində, bir o qədər də yanılmamışdım, böyük ehtimalla elədir ki, var. Ölkə əhalisinin yetmiş faizi, birinci xanım Raniya da daxil olmaqla, fələstinlidi. İordaniya Krallığı İordaniya ilə Fələstini bir xalq olaraq görür.

Bundan əlavə, planetin ən maraqlı su hövzəsi olan Ölü dənizin bir sahilinin ona məxsus olduğunu, Qırmızı dənizə çıxışı, sonu görünməyən səhraları olduğunu bilirdim. Bir də İordaniya mənim üçün son illərin informasiya portallarından tez-tez eşitdiyim «İordan çayının qərb sahili»ndən verilən ürəksıxıcı xəbərlərlə assosiasiya olunurdu. Burada isə, həmin o adı xəbər aparıcılarının dilindən düşməyən İordan çayının (İsa peyğəmbərin məhz həmin o İordan çayında xaç suyuna çəkildiyi iddia olunur - D.A.). («Həyat sudan, Evangeliya İordandan başlayır») İordaniya ilə Israili necə yarıya bölüb təbii sərhəd xətti əmələ gətirdiyini, Ölü dənizə töküldüyünü öz gözlərimlə gördüm. Xaç suyuna çəkilmə İordanda bu gün də davam edir, buna görə çayın qarşısını kəsib bir qədər dərinləşdiriblər ki, bu mərasimi rahat həyata keçirtmək mümkün olsun.

## *Çəhrayı nağıl və ya tarixin itirdiyi şəhər*

Səyahətimizin birinci gününə və ölkə ilə tanışlığa İordaniyanın qədim şəhəri olan, iki min il əvvəl Nəbatilər tərəfindən yaradılmış və 1985-ci ildə UNESCO-nun qərarı ilə dünyanın «Yeni yeddi möcüzəsi»ndən biri elan edilmiş möhtəşəm Petra ilə başladıq. Səhərin gözü açılmamış Petra - Vadi Ram tur avtobusuna əyləşib əvvəlcə daş mənasını verən nəhəng sıldırımlarla əhatə olunmuş Petraya start götürdük. Petra Lut gölü (Ölü dəniz) ilə Əqəbə körfəzi arasında yerləşir.

İordaniyanın vizit kartı sayılan Petraya dünyanın hər yerindən gələn saysız-hesabsız turistlər, Ölü dənizin müalicəvi əhəmiyyəti, onun nemətlərindən farmakologiya və kosmetologiyada geniş istifadə, Qırmızı dənizin Krallğın ərazisinə düşən Akaba sahilində tikilmiş beşulduzlu otellər, göz oxşayan qumlu çimərliklər ölkənin gəlirinə köklü köməkdir. Torpağının çox hissəsi səhralardan ibarət olan İordaniya, turizmdə, obrazlı desək, özünə möhkəm karyera yaratmış bir ölkəyə çevrilmişdir. Amman son minillik boyu insanların fasiləsiz yaşadığı bir yer olsa da, müasir görkəmi ilə cavan, yeni salınan şəhərə oxşayır və elə özü kimi cavan bir dövlətin də paytaxtıdır.

Petra hələ Bibliyada xatırlanan, Nəbatilərin paytaxtı kimi tikilən, inkişaf edən, çiçəklənən və varlanan ticarət mərkəzi olmuşdur. Çəhrayı rəngli torpağına işarə olaraq «Qırmızı qızılgül rəngli şəhər» kimi poetik ad daşıyan Petra həm də əsas karvan yolu olmuşdur. Şərqə dəniz yolu açıldıqdan sonra Petranın tənəzzülü başladı. Yüzilliklər gəlib keçdikcə Petra da səhranın dərinliklərinə çəkilir, sözün əsl mənasında itib-batırdı.

Sərt dağ massivində gizlənmiş bu şəhər XIX əsrə qədər elə dünyaya da gizli-pünhan qalmaqda idi. Petra bir də 1812-ci ildə üzə çıxdı. Qayıtdı, özü də tək qayıtmadı, özü ilə saysız-hesabsız qonaqlar gətirdi. İndi Petranı il ərzində dünyanın hər yerindən yarım milyon turist ziyarət edir.

Petra ətraf ərazilərdən altı yüz metr yüksəklikdə yerləşir, ona görə bu şəhəri hücumla almaq heç bir istilaçıya qismət olmamışdır, elə bizim talesiz Şuşamız kimi… Bura o qədər maraqlı bir yerdir ki, bir dəfə görmək çox azdır...

Petra daş tapmaca, daş akvarel, daş şahid kimi adlarla da mifləşdirilmişdir. Tarixi tarixçilər yazırlar, üzünü köçürürlər, dəyişirlər, istədikləri kimi düzəldirlər. Əfsanə isə yarandığı kimi də nəsildən nəslə ötürülür... Əfsanə ölmür! Nə canlısı, nə cansızı! Tarixin «götürüb saxladığı» qızıdır Əfsanə!

Bu gün Petranın cəmi on beş faiz ərazisi səyyahlar, tarixçilər, arxitektorlar, alimlər tərəfindən öyrənilə, tədqiq edilə, araşdırıla bilmişdir. Deyilənə görə, Misir hökmdarı Kleopatra Yuli Sezardan məhəbbətinin sübutu kimi Petranı istəsə də, böyük sərkərdə buna heç vəchlə razı olmamışdır. Atlar qoşulmuş faytonlar, kiçik səhra maşınları da turistlərin xidmətində idi, əlbəttə ki, haqqı ilə. Amma bu üç kilometr yolu gərək piyada gedəsən ki, buranın ruhunu duyasan, hər daş sənə nə isə pıçıldasın… Ən tükürpərdicisi də o idi ki, bir var göylərə baş vuran sıldırımlara uzaqdan baxasan, bir də var, içərisindən keçib gedəsən, ilk görəndə qorxudan adamın qəlbi dayanır. Hər nəhəng təbiət abidəsinin yanında heyrətlənib şəkil çəkdirə-çəkdirə gəlib çatdıq XƏZİNƏYƏ!!! Deyildiyi qədərmiş! Yox, daha da artıq! Adətən bir şeyi çox tərif edəndə həmin nəsnənin effekti, qiyməti ölür, amma bu NƏSNƏNİN yox! Özü də sonuncu kanyona çatanda nagahan çıxır qarşına və mən hələ də ona yaraşan sözü tapa bilməmişəm. Xəzinə şəhər - muzeyin sonunda olsa da, qarşıda hələ amfiteatrlardan çox-çox əvvələ aid məşhur Roma pillələnləri dururdu. Amma xəzinə məni öz fantastik memarlığı, qənirsizliyi ilə necə valeh etmişdisə, ondan ayrıla bilmirdim, ona əl vurmaq istəyirdim, ancaq qarşısı lentlə bağlı idi. Misir piramidalarının içərisinə əlavə məbləğ muqabilində girib baxmaq olur, lakin Əl-Xəznəyə qəti qadağandır, hətta müstəsna hal kimi böyük səyahətçi Qərib Azərə və onun komandasına da icazə verilməyib. Amma bizim diplomatlardan bir nəfər təsadüfən onun içərisinə daxil ola bilmişdir. Vaxtilə misli görünməmiş sərvətin saxlanıldığı yer indi boş bir mağara idi. Bax, yenə də entuziazma qapılıb xəzinənin nə olduğunu anlatmıram. Fironun xəzinəsi olan bu möhtəşəm abidə qayadan yonulmuş məbəd - mavzoleydir. Əl-Xəznə - həm də qədim daşyonanların, həkkakların və inşaatçıların özlərinə, öz zamanlarına və sənətlərinə ucaltdıqları əzəmətli bir daş əsər olmaqla, keçmiş sivilizasiyanın izləri kimi bu günün memarları üçün tapmaca olaraq qalmaqdadır. Bələdçinin söylədiyinə inansaq, xəzinə qayaya elə hesabla həkk olunub ki, necə güclü yağış yağsa da islanmır. Bu tikili eramızın II əsrinə aiddir, amma elə bil bu dəqiqə qoyub gediblər, nə binanın rəngi solub, nə də bir daşı düşüb. Sanki burada zaman da donub, sadəcə məkandakı insanlar başqadır, elə bil qulaq versən keçmişin səsini də eşidərsən. Mən onunla təklikdə qalıb sükutuna qarışmaq, sirrini öyrənmək istəyirdim. Xəzinə də məni buraxmırdı, mən də planetin bu nadir tarixi abidəsindən ayrıla bilmirdim. Məlumat üçün deyim ki, «Sindbad və pələngin gözü» filminin bir hissəsi, «İndiana Cons» blokbasterinin və «Transformerlər» filminin bəzi səhnələri məhz Petrada çəkilmişdir.

Cünəşin şüalarının düşmə bucağından asılı olaraq, şəhərin divarlarının rəngi çəhrayıdan narıncıya, narıncıdan kərpiciyə dəyişib durur, axşama

doğru isə qırmızı rəng alır, İlahinin yaratdığı göydələnlərdə təbiətin günboyu qarışdırdığı rənglərin rəqsi davam edir.

Petra insan və təbiətin birgə əsəridir. Burada insan əli və ağlı ilə, təbiət isə öz hadisələri ilə çalışmışdır. Amma Petranı yenidən şəhər edən insanlardır, düzdür, bu gün Petranın daimi sakinləri yoxdur, əvəzində dünyanın hər yerindən saysız-hesabsız müsafirləri var, onların səsləri, gülüşləri, ayaqqabılarının taqqıltıları əsrlərin yuxusuna getmiş bu qədim şəhəri silkələyib oyadır, yenidən həyata qaytarır. Ardı-arası kəsilməyən turistlərə baxmayaraq, şəhəri cox təmiz saxlayırlar, bir tərəfdən elə hey yığışdırırlar. Petra hər gün saat dörddə bağlanır, həftədə üç dəfə axşam tamaşaları da olur. Xəzinəyə qədər yüzlərlə şamlar yandırılır və çox romantik görüntü yaranır. Saat altıdan sonra şamları düzməyə başlayırlar. Xüsusi effekt yaratmaqdan əlavə, bu mumlar həm də daş şəhərin nigaran ruhlarını qovmaq üçündür. Sonuncu turist kabus şəhəri tərk etdikdən sonra Petra zülmətə qərq olur, özü və özündə gizlətdiyi sirləri ilə təkbaşına qalır.

## *VADİ RAM*

Petradan sonrakı dayanacağımız «Qırmızı səhra», «Aylı Vadi» kimi bədii adları olan Vadi Ram-Rum vadisi idi. İordaniya həm də vadilərin məskənidir, burada adı vadi ilə başlayan gəzməli, görməli çox yer var. Hamısını növbə ilə gəzəcəyik.

Vadi Ram səhrası sivilizasiyanın toxunmadığı, qırmızı-kərpici-narıncı rəngli müdhiş dağların içərisində, elə torpağının rəngi də çəhrayı olan, Allahtəalanın dəst-xətti ilə zamana meydan oxuyan, qeyri-real peyzajı ilə görəni tutub buraxmayan bir yerdir. Burada qüdrətdən yaranan dağları görəndə ağlıma ilk gələn Quran-i Kərimin Ənbiya surəsi oldu: «Və yerdə sabit dağlar yaratdıq ki, yer onları (insanları) silkələməsin » (31). Hündürlüyü 1830 metrə çatan silsilə dağlar təbiətin poeziyası da hesab oluna bilər, «Ənbiya» surəsinin əyani sübutu da…

Vadi Ram səhra-qoruğu UNESCO-nun Ümumdünya mədəni irsi siyahısına da daxil edilmişdir. Deyilənə görə sakit, aydın havada buradan Səudiyyə Ərəbistanı ilə olan sərhəd və Qırmızı dəniz görünür. Burada axşam tez düşür, hava sürətlə qaralır və səhranın gecə həyatı başlayır. Qaranlığın düşməsi ilə havanın sərinləməyi bir olur. Çox qəribə iqlimi var səhranın… Vəzni də... Sürprizləri də..! Çiçəkləməyi də !!!

Səhranın gündüz və gecə temperaturu kəskin fərqlənir, yandıran torpaq dərhal buz kimi olur. Səmum küləyi ara-sıra özünü xatırlatsa da, bu gün üçün qum firtınası gözlənilmir. Gecəyə davam!

Vadi-Ram özünün infrastrukturu, xidmətləri, əyləncələri, hətta səhrada sərgilənən çadır «otel»ləri, kempinqləri olan böyük bir turizm obyektidir.

Mən səhranı bir az dənizə bənzətdim, onun qədər sonsuz, günəşin şüaları altında rəngini dəyişən, ağır-ağır hərəkət edən canlı gəmiləri ilə...

Turun proqramı çərçivəsində bütün günümüz səhrada keçdi. Heç bilməzdim ki, səhrada da dincəlmək olarmış… Özü də necə gözəl olurmuş! Deyilənə görə, Vadi Ram səhrasında saçan günəş möcüzələr yaradır, burada qəbul edilən günəş vannası ömrü uzadır, bir çox xəstəliklərin profilaktikası ola bilər. Buranın günəşi yandırmırdı, bizim Abşerondakı kimi kül etmirdi, çünki ekoloji cəhətdən təmiz ərazi idi, radiasiyası yox idi. Vadi Ram da qonşusu Petra kimi özünü filmlərdə sınamışdı. «Marsianin» filminin bütünlüklə burada çəkilməyi təsadüfi deyilmiş, anamız Yerdə «qırmızı

planet»i ancaq Vadi-Ram səhrasında tapmaq olardı… Filmin qazandığı böyük uğurdan sonra Vadi-Ram Marsın təbii pavilyonuna çevrildi və Hollivud burada Marsa aid silsilə filmlər çəkməyə başladı.

İordaniya həm də kinematoqrafiyada oxşar mənzərələri ilə İraqın panoramını əvəz edir və nəzərə alanda ki, burada bir milyon iraqlı köçkün var, mənzərə tam aydın olur.

... Azan verildikdən sonra şam yeməyi başladı. Şərq mətbəxi hər zamankı kimi şahanə idi. Kim nə deyirsə desin, mətbəx də millətin, xalqın bir güzgüsüdür. Üçmərtəbəli qabın içinə düzülüb, üzərinə falqa çəkilib torpağa basdırılan, üstü də xalça ilə yaxşı-yaxşı örtülüb közdə bişən ZƏRB adlanan ət isə indiyə qədər yediyim ən fantastik yemək və həmişə xatırlayacağım dad oldu. (Hətta mənim kimi mətbəxə soyuqqanlı bir adam üçün də...) Köçəri bədəvilərin qədim yeməyi olan zərbin bu qaydada bişirilməyinin müxtəlif səbəblərini izah etdilər: səhrada oduna və başqa vəsaitlərə qənaət məqsədilə, səhra küləyinin odu söndürməməsi və isti qumda saatlarla qalıb dəmlənməsi üçün… Oradan çıxarıldıqda isə ət bir tərəfdə, sümüklər bir tərəfdə olur.

Yaxın Şərq üç irqin - Avropa, Asiya və Afrikanın qaynayıb-qarışdığı bir ölkədir. Adətən belə «metisləşmədən millət qəşəngləşir» - deyənlər çoxluq təşkil etsə də, İordaniya ərəbləri gözəl xarici görünüşləri ilə o qədər də seçilmirlər (gen yaddaşının «konstitusiya»sı körfəz ərəblərində güclüdür, xüsusilə cavanlıqda çox gözəl olurlar, qızlı-oğlanlı, baxmaqdan doymursan! Sifət quruluşları, qaş-gözləri ilə müqəddəslərə oxşayırlar!)

## *ABDALİ*

Ellinizm dövründə Filadelfiya adlanan Amman Moskva və İstanbul kimi yeddi təpə üzərində yerləşir. (Amma şəhər tikilib böyüdükcə, bu təpələrin sayı on doqquza çatmışdır, hətta iyirmincisi tikilir). İordaniyanın bayrağında təsvir edilmiş yeddiguşəli ulduz «Fatihə» surəsinin simvolu olmaqla bərabər, həm də yeddi təpənin rəmzidir. Dağların və səhraların arasında yerləşən və inanılmaz dik relyefi olan Ammanda çoxmərtəbəli binaların sayı cox azdır, evlərin tikilməsində əsasən ağ daşdan istifadə edilir, elə buna görə də «Ağ şəhər» adı ilə məşhurdur.

Abdali rayonu müasir Ammanın yeni imzasıdır. Abdali kral II Abdullahın şərəfinə belə adlandırılmışdır. Şəhərdə ən görməli və gəzməli yer buradır. Burada ancaq piyada hərəkətidir. Bir az bizim «Azərbaycan» kinoteatrı yerləşən məhəlləyə oxşayır. Bulvar uzun bir küçə boyunca davam edir. Bura çox gözəl dizayn verilmişdir. Şəhərin təpələrin üstündə yerləşməsi bulvarın bir neçə yerdən pilləkənlərlə dekor edilməsinə imkan verir. Bu pilləkənlər birbaşa funksiyasını yerinə yetirməkdən əlavə, həm də arxitektura elementi kimi bulvara gözəllik qatır. Ellips formasında düzəldilmiş bu kompleksdən həm də skamya, oturacaq kimi istifadə olunur. Müasir fəvvarələr göz oxşayır, səliqəli kafelər müştərilərə yüksək səviyyədə xidmət edir. Bulvarın əsas aksenti yüngül kölgəlik verən ağ yelkənlərdir, ən çox da xoşuma gələn bu oldu. Deyilənə görə, bayramlarda bulvar xususi və qeyri-adi bəzədilir. Yeni ildə burada süni buz meydançası, buzdan sürüşkənlər düzəldilir. Həm də ayrı-ayrı səfirliklər burada öz həftələrini keçirirlər. Məsələn, Fransa həftəsində burada Zəfər tağı, Luvr, Eyfel qülləsinin böyük maketləri quraşdırılır. Abdali bulvarının yanında eyni adlı müasir, çox gözəl Abdali Moll yerləşir. Burada əsasən, körfəz ərəbləri, Dubaydan, Qətərdən olan ailələr alış-

veriş edirlər. Hətta bu rayonun onlara məxsus olduğu da söylənilir. Bulvarın ətrafı hündür binalarla əhatə olunmuşdur, burada terras dəbdədir. Molların və binaların gözəl interyerli terraslarında bahalı və şıq restoranlar fəaliyyət göstərir, yüksəklikdən şəhərə gözəl mənzərə açılır. Bu terraslardakı restoranların biri Livan şairi Cübran Xəlil Cübranın adını daşıyır. Yeri (doqquzuncu mərtəbə), mənzərəsi, kontingenti, feyskont-rolu, mətbəxi ilə bu ərazidə birinci olan «Cübran» öz qeyri-adi dizaynı ilə də fərqlənir. Baş köşədə şairin böyük portreti asılmışdır. Restoranın interyeri şairin rəsmlərinə öz şeirlərindən parçalarla ustalıqla dizayn edilmişdir: Cübran Xəlil Cübran XX əsr Livan və Amerika şairi, yazıçı, rəssam, filosof olmuşdur. Livanlı olsa da, Bostonda böyümüşdür. Amerikada yaranmış ərəb ədəbiyyatının ən görkəmli nümayəndəsi kimi tanınan və XX əsrin ən çox oxunan yazıçılarından biri kimi onun əsərləri dünya mədəniyyətinin qızıl fonduna daxil edilmişdir. Onun «Peyğəmbər» adlı mistik şeirlər kitabı XX əsr Amerikasında, Bibliyadan azacıq geri qalmaqla, ikinci bestseller sayılır. Əsərləri dünyanın iyirmi dilinə tərcümə edilmişdir. Rəsm əsərləri indi də sərgilərdə nümayiş etdirilməkdədir. Cübran Xəlilin Livandakı muzeyində onun dörd yüz qırx rəsm əsəri qorunub saxlanılır. Öz vətəni Livanı dəlicəsinə sevən Cübran Xəlil 1931-ci ildə qırx səkkiz yaşında Nyu-Yorkda vəfat etsə də, Amerika vətəndaşlığını qəbul etməmişdir. Sözün açığı, mən Cübran Xəlilin yaradıcılığı ilə tanış deyildim… Tanışlığımız nə qədər qəribə səslənsə də, adını daşıdığı restoranda baş tutdu...

İordaniyada ən çox diqqətimi çəkən bankların hədsiz çoxluğu oldu. Nə Universitet binasına təsadüf elədim, nə teatr binasına... Hər yerdə lider ARAB BANK idi. (Təəccübümün səbəbini belə izah etdilər ki, burada universitetlər, tibb müəssisələri və başqa qurumlar şəhərcik kimi fəaliyyət göstərir, özü də əsasən şəhər kənarında, ona görə də gözə dəymir). İordaniyada təbabətin səviyyəsi aparıcı Avropa ölkələri sırasındadır.

## *ŞƏRQİN POMPEYİ - CARAŞ!*

Sıradakı ekskursiyamız İordaniyanın qədim bir məskəninə - cəmi otuz min əhalisi olan, amma ölkədə Petradan sonra turistlərin ən cox görmək istədikləri, tarixi hələ Neolit dövrünə gedib çıxan və bu qədər çox sayda tarixi abidəni özündə yerləşdirən Caraşadır (yəni, indiki Caraşın qədim hissəsinə). Caraş dəhşətli zəlzələlərə və uzunmüddətli leysanlara məruz qalmış, elə o zəlzələlərin hesabına torpağa gömüldüyü üçün demək olar ki, günümüzə salamat gəlib çatmışdır.

Muzey-şəhərə giriş möhtəşəm Zəfər tağı ilə başlayır, buna «Adrian ala qapıları» da deyirlər. Tağın sol tərəfində, yerdə AUTOKRATOR (imperator) yazısını seçmək mümkündür. Roma imperatoru Adrianın gəlişi şərəfinə 129-cu ildə ucaldılmışdır. Salnaməyə görə, hətta tağın qapılarının taxtadan olduğu da məlumdur. Adrian qapıları Yunan-Roma dönəminin hakim olduğu bir çox şəhərlərdə qalmaqdadır, amma bir-birindən fərqlənir. Məsələn, Caraşın Adrian qapıları daha hündürdür, Antalyadakı qapılar isə həm sümük kimi, həm də şirmayıdır və qat-qat gözəldir. Mən əvvəllər də Yunan-Roma dönəminə aid tarixi abidələr, hətta açıq səma altında muzey-şəhər də görmuşdum, amma bu miqyasda, bu ölçüdə yox...

Biz Caraşa günün ikinci yarısında getmişdik, ona görə nəinki isti deyildi, əksinə, sərin meh gəzintimizi asanlaşdırır, əyilən günəş qədim şəhərə romantik bir görüntü verirdi. Təmtəraqlı tağların içərisindən keçib kompleksə

daxil oluruq. Antik Caraşı «minlərlə sütunlu şəhər», bəzən də «Şərqi Pompey» adlandırırlar. Qədim Caraş öz meydanları, küçələri, səkiləri, fəvvarələri, cıdır meydanı, hamam və teatrları, məbəd və qüllələri - bir sözlə, müasir şəhərsalmanın tələb etdiyi hər şeyə malik bir şəhər olmuşdur. XXI əsrin ortalarına doğru, müasir şəhərin qonşuluğunda baş allah Zevsin və onun qızı Artemidanın məbədlərini görmək (Zevs şəhərin qayda-qanununa cavabdeh idi, Artemida isə şəhərin himayəçisi idi), dəyirmi meydandan keçib səkkiz yüz metr uzunluğunda, qədim Caraşın sütunlu Kardo-Maksimus (lat.cardo maximus, əsas küçə) küçəsinə çıxmaq, ən başlıcası atmosferi hiss etmək, gerçəkdən zaman maşınında səyahət etmək kimi bir şeydir. Artemidanın məbədinin önündə böyük meydan var, bu meydan qədim Caraşın ən yüksək yeridir, buradan yeni Caraş ovuc içi kimi görünür. Demək, aşağı düşüb yolun o tərəfinə keçsən, XXI əsrə düşürsən, istəməsən, qalırsan burada...

Caraşın gözü - nimfaların şərəfinə tikilmiş ikimərtəbəli fəvvarədir. Qədim şəhərin bazar meydanında quraşdırılmış bu nadir nüsxəyə şərh verib ucuzlaşdırmaq da istəmirsən! Roma dönəminin əsas atributlarından olan fəvvarələr, bir qayda olaraq, var-dövlət, təmtəraq nişanəsi idi. Fəvvarə çox yaxşı qalıb… Hətta yeraltı rezervuarı da durur. Onu yenidən işlətmək də gündəmdədir. Caraşda yerlərinin sayına görə müxtəlif həcmlərdə üç amfiteatr var, üçü də işlək vəziyyətdədir. Amfiteatr ikiqat teatr deməkdir. Burada tamaşa, konsert vermək üçün hər şey nəzərdə tutulmuş, ölçülüb biçilmişdir. Dörd min tamaşaçı tutan ən böyük amfitearda bayram konsertləri zamanı teatrın divarlarında yerləşdirilmiş pəncərəyə oxşayan eyni ölçülü, yaraşıqlı taxçalar işıqlandırılır, teatrın ən yüksək nöqtələrində divarboyu məşəllər yandırılır və arenada orkestr əyləşir, bugünkü səhnələrlə muqayisə olunmayacaq hündür və enli platformada tamaşa başlayır və daş tribunalarda oturub bu mənzərəni seyr edən XXI əsrin tamaşaçısı çaşıb qalır, bir ayağı keçmişdə, digəri bu gündə… Burada dövlət tədbirləri, beynəlxalq folklor və musiqi festivalları keçirilir. Bizim xalq artisti, xanəndə Mələkxanım Əyyubova da İordaniyada qastrol səfərində olarkən məhz burada konsert proqramı ilə çıxış etmişdir. Teatrın manejində, ortalıqda bir ayaq ləpiri boyda yer var ki, mikrofon, səsgücləndirici funksiyasını daşıyır, akustikanı tənzimləyir. Orada dayanıb adi qaydada danışdıqda, ya mahnı oxuduqda səs ən uzaq tribunalarda da aydın eşidilir. Arenada milli paltarda, davul və «volınka»da müxtəlif musiqilər ifa edən, gəlib-gedən turistləri simvolik bəxşiş müqabilində əyləndirən, danışdıran, söhbətə cəlb edən yerli musiqiçilər növbə çəkirlər. Turistlər arzu etdikləri musiqiləri sifariş verir, mahnı oxuyur, şənlənir, rəqs edirdilər. Biz də geri qalmadıq, «Sevgili canan»ımızı oxuduq, axına qoşulub rəqs etdik. Turistlər bir-birinə qarışmışdı, hərə öz musiqisini ifa edirdi. Xeyli pozitiv aldıq, əyləndik, deyə-gülə XXI əsri yaşayan qədim Caraşa vida etdik.

## *DAUNTAUN*

Proqramımıza şəhərin Dauntaun adlanan qədim hissəsinə gəzinti də daxil idi. Şimali Amerikadan alınan «Dauntaun» kəlməsi aşağı şəhər deməkdir, amma şəhərin qədim və mərkəzi hissəsi nəzərdə tutulur. Şəhərin mərkəzi və əsas rayonu olan Dauntaun tamam başqa bir xarakterli Amman idi. Qarmaqarışıq, çirkli, həm piyada, həm maşın gediş-gəlişinin çox olduğu bu rayonda əsasən kasıb təbəqə yaşayırdı və bunu hər halı ilə bəlli edirdi.

Qeyd etməliyəm ki, bütün şəhərlərin Dauntaunları kimi, Ammanın da eyni adlı məhəlləsi dələduz, kriminal rayon etibarı qazanmışdır. Zəngin insanlar çoxdan Dauntaunda yaşamırlar, bu rayonu orta və aşağı təbəqə idarə edir. Lakin Dauntaun bizə pis üzünü göstərmədi, hicablı qadınların arasında açıq yay geyimində gəzən bizlər ancaq nəzakət, hörmət və isti münasibət gördük. Şəhərin qədim hissəsi olduğu həm də hədsiz sıxlıqdan, tıxaclardan hiss olunurdu. Amman özünün bütün dərinliyi, ruhu ilə sanki tarixini qoruyan bu kontrastlar krallığının Şərq koloritinin üstünlük təşkil edən məhəllələrində yerləşirdi. Dauntaun xaotik tikilmiş bir-birinin içinə girən evlərdən, əyri-üyrü döngələrdən, səs-küylü dar küçələrdən və bu isti yay günlərində kücələrin külək döyən hissəsində sərinlik axtaran sadə insanlardan ibarət idi. Hər tərəfdən də - Müqəddəs Kitabımızdan, poeziyamızdan, yas məclislərindən, elə leksikamızın ozündən bu qədər tanış ərəblisanının quru boğaz zəngulələri eşidilirdi. Ərəb dilinin təbiəti - zəngin samit sistemi sayəsində elə bilirdin ya dalaşırlar, ya boğazları ağrıyır, ya da boğazlarında nə isə ilişib qalıb. Bir də havadan bu xalq üçün müqəddəs olan ədviyyatların qoxusu gəlirdi.

Ərəb dili 240 milyon insanın doğma dili sayılır. Həm də bu dil Beynəlxalq Millətlər Təşkilatının altı rəsmi danışıq dillərindən biridir. Dauntauna gəlməyə bilməzdik, burada epoxalar qovuşurdu, çünki İordaniyanın altmış min tamaşaçı tutan, mədəni və idman tədbirləri keçirilən ən böyük Roma amfiteatrı küçə ticarəti ilə üzbəüz, qarşı səkidə yerləşirdi. Kompleksə kiçik amfiteatr (Odeon), folklor muzeyi və onların qarşısındakı böyük meydanda yerləşən park daxildir. Bax, əsl ekzotika budur, alış-veriş elə, yorulanda da, bir dondurma al, get otur nə vaxtsa qladiatorlar döyüşən antik teatrda! Maraqlıdır, deyilmi? Ən yüksək tribunadan arenaya baxmaq başgicəllən-dirici olmaqla bərabər, bütün məkanın aurasını hiss etməyə, duymağa da şərait yaradır.

Bütün Roma teatrları kimi açıq səma altında və tamaşaçılara aid hissə «at nalı» deyilən formada olan bu qədim abidənin başqa amfiteatrlardan fərqini özüm başa düşdüm. Başqa tribunalarda sıralar bütöv skamya kimi düzəldilmişdi, burada da həmçinin, yalnız bir sıradan başqa… Teatrın tən ortasında bir yarus daşdan ayrı-ayrı kreslolar formasında idi, ayaqları və söykənəcəyi olmaqla... Amma uzun sıradan tək bir kreslo salamat qalmışdı, qalanlarının izi-tozu da yox idi, yerləri eləcə boş dururdu. Orada əyləşdim, həqiqətən də çox rahat idi, həm də güclü energetika hiss elədim. Qladiatorlar haqqında baxdığım filmlər yadıma düşdü. Elə bil bu kreslo məni sehirli xalat kimi iki min il əvvələ aparmaq istəyirdi. Mən də rola girib «amoravati, amoravati çandrika» sehrini oxuyanda Kəmalə «day bəsdi, dur» - deyib sanki ciddi-ciddi narahat oldu. Elə bil həqiqətən də mistik bir yer idi. Aydın idi ki, bu sıra mötəbər adamlar üçün nəzərdə tutulmuşdu, teatrın işçiləri allahların yeri olmaqdan başlamış, arenanın daha yaxşı eşidildiyi sıra, gunəş şüalarının göz qamaşdırmadığı hissə kimi fərqli versiyalar söylədilər. Amma 1948-ci ildə qonşu İsraildən axışan Fələstin qaçqınlarına həmin bu Roma teatrının müvəqqəti sığınacaq kimi qucaq açdığı artıq tarixi faktdır. Ümumiyyətlə, İordaniya ən çox qaçqın böhranı yaşayan, dəfələrlə öz ərazisində məcburi köçkün yerləşdirən ölkə kimi tanınır. Zaman-zaman iki milyon Fələstin qaçqınını, 1,2 milyon suriyalını, Səddam Hüseynin devrilməsindən sonra aqibəti naməlum, çar-naçar qalmış nə qədər iraqlını öz ölkəsində qəbul etmişdir.

Burda İordaniya səfərimin birinci hissəsi bitir.

# İSKƏNDƏRİYYƏ

…Hər ölkənin özünə məxsus simvolları, maraqlı atributları var, bəzisinin çox, bəzisinin az… Hərdən deyirlər ki, filan ölkəni üç kəlmə ilə xarakterizə elə… Amma Misirin simvollarını nəinki üç, heç iyirmi üç kəlmə ilə də sayıb qurtarmaq olmaz. Qədim dünya abidələrinin demək olar ki, yarısı Misirdə qərar tutub. Misir ilk növbədə tarix deməkdir, onun dəniz qızı İskəndəriyyədir. İskəndəriyyə demək isə Kleopatra deməkdir. (Kleopatra İskəndəriyyənin üzüdür, birinci xanımıdır. Burada doğulmuş və yaşamış məşhur Misir divasının adı necə lazımdırsa əbədiləşdirilib; «Kleopatra» otel, «Kleopatra» çimərlik, «Kleopatra» gözəllik salonu və s. Kleopatranın adı ətirə, siqaretə, çaya da verilib, Aralıq dənizinin çirklənməsinə qarşı keçirilmiş monitorinqə də…)

Misir - allahlar, Nefertiti, fironlar, qullar, ehramlar, qızıldan sərdabələr, mumiyalar, heroqliflər deməkdir. Misir - Qahirə, azan səsi, Nil, palmalar, səhralar, dənizlər, dadlı yeməklər deməkdir. Misir məscidlər, Şərq nağılları, Yusif Peyğəmbər, Musa Peyğəmbər, kilsələr, Ra (günəş allahı), Ramzes (Ramzes də yaman çoxdur, hara baxırsan Ramzesdir... Ramzes meydanı, Ramsez vağzalına qədər! Gürcüstanda hər yer «Rustaveli» olan kimi), Xeops, Sfinks, Luksor qarışıq bir kaleydoskop deməkdir.

Əl-İskəndəriyyəyə xoş gəlmişik!

…Böyük İskəndəriyyə ilə tanışlığımız Montaza sarayından başlayırdı.

Möhtəşəm Montaza sarayı eyni adlı və özü kimi də möhtəşəm bir parkın ucu-bucağı görünməyən ərazisində yerləşirdi. Kral sarayı olan Montaza keçmiş Misir kralı Farukun yay iqamətgahı olmuşdur. Sarayın tikilmə tarixi 1926-ci ildən hesablanır. Sarayın qarşısında bir-iki xatirə fotosu çəkdirdikdən sonra parkı gəzməyə başladıq. Montaza parkının bizim Filarmoniyanın bağı, İstanbulun Gülhanə parkı kimi (elə bura da bir gülhanədir) dənizə çıxışı var. Bu ona xüsusi bir gözəllik verir. Bura cənnətin bir guşəsi yox, elə cənnətin özüdür. Parkın yaşıl örtüyü müxtəlif növ palmalar, iynəyarpaqlılar, hündür fikus ağacları, tropik bəzək kolları, gözəlliyi göz oxşayan oranjereyalardan ibarətdir. Burada nə varsa, sanki quş dimdiyində gətirib qoymuşdu. Gözəl qulluq edilmiş, üstü meyvə dolu banan və xurma palmalarının altına qoyulmuş skamyalar, yamyaşıl, səliqəli qazonlar, ətrafı ağ şir heykəlləri ilə bəzədilmiş böyük çarhovuzlar (yaşıl landsaftın fonunda ağ xüsusi gözəl görünür), dekorativ körpülər, antik heykəllər ən xırda detalına qədər yerində düşünülmüşdü. Toxunulmamış, ləkələnməmiş, səs-küydən uzaq mənasını verən «Montaza» adını bu məkana əbəs yerə verməyiblər ki! Və bu gözəlliyin son vurğusu da Aralıq dənizinin aramla sahilə çırpılan dalğalarından gəlir… Bu, cənnət həzzini tamamlayır.

Aralıq dənizi Atlantik okeanının daxili dənizi olub üç materikin - Avropa, Afrika və Asiyanın arasında yerləşir. Afrika sözünün bir mənası da köpüklü sahil deməkdir ki, bu da birbaşa Aralıq dənizinə işarədir. Məncə ona dəniz deməkdə bir az ədalətsizlik edirlər. Adı dəniz olsa da, elə okean kimidir. Hansı ölkəyə gedirsən, orada Aralıq dənizi var. Onun sahillərində fərqli mədəniyyətlərə, tarixə malik müxtəlif xalqlar yaşayır. Nəhəngliyi ilk baxışda görünür, bir də dalğalarının gücündə! Sahilə çırpılıb geri qayıdan dalğaya hündürlükdən baxmaq həyəcanverici və qorxuludur. Suda olanda bunu bir elə hiss eləmirsən, çunki bütün çimərliklərdə dalğaqıranlar quraşdırılıb, amma sahildən baxdıqda real təhlükəli mənzərədir. Mən

həmişə okeanla dənizi müqayisə edəndə deyirəm ki, bir var aslanın pəncəsi, bir də var pişiyin... Belə "dəmir pəncə"sinə baxmayaraq, Aralıq dənizində çimmək rahatdır, ətrafında üzən xırda balıqlar da arada səni dişləyib qaçır.

...Şəhər haqqında onu deyə bilərəm ki, elə adına da layiqdir. Həm qədim, həm müasir, heyranedici, romantik, təəccüblü, ruh oxşayan, mehriban və əsl su pərisi kimi dəniz ətirli, bir sozlə MÖHTƏŞƏMDİR!

Mən bu şəhəri gördüm, duydum, eşitdim və çox sevdim! Böyük İskəndərin nədən öz adını verdiyini də anladım. İskəndəriyyə Roma və Afina kimi antik dünyanın mirvarilərindən hesab edilir. Burada qədim Misir, yunan və Roma mədəniyyətləri birləşir.

Tarix necə yazılıb?

Oğlu İskəndərin həqiqi fateh, sərkərdə kimi yetişdiyini hər kəsdən əvvəl anlayan atası II Filipp ona demişdi: «Oğul, özünə başqa çarlıq axtar, Makedoniya sənin üçün çox kiçikdir». Eramızdan əvvəl 331-ci ildə iyirmi beş yaşlı Makedoniyalı İskəndər Misiri işğal etdikdən sonra Aralıq dənizinin sahilindəki köhnə balıqçı kəndinin yerində öz nəhəng imperiyasının paytaxtı kimi yeni şəhər salmış və onu öz şərəfinə İskəndəriyyə adlandırmışdır. Bu şəhəri görən hər kəs anlayar ki, böyük fatehin adı verilən şəhərlərdən niyə məhz İskəndəriyyə öz adını doğrultmuş, əsrlərin enişli-yoxuşlu illərində itib batmamış, bu günümüzə gəlib çatmışdır.

Aralıq dənizində gəmisi qəzaya uğrayan imperator Napoleon da İskəndəriyyəyə sığınmışdı. Deyirlər ki, böyük şəhərlər görmək üçün, kiçik şəhərlər eşitmək üçündür, illah da ki, bu şəhər dənizin sahilindədirsə... Misirin ikinci böyük şəhəri və mədəni paytaxtı olan (Rusiya üçün Sankt-Peterburq kimi) İskəndəriyyə həm görmək, həm də eşitmək üçündür! İskəndəriyyəyə misirlilər nəvazişlə Aleks deyirlər (Peterburqa Piter deyən kimi, düzdür, Peterburq çox gəncdir, hələ heç dörd yüz yaşı olmayıb). Ayrı-ayrı qütblərdə yerləşən, birində daim günəş parlayan, digəri isə dünyanın ən şimal şəhəri sayılan İskəndəriyyə ilə Peterburqun oxşar cəhətləri çoxdur: hər ikisi tarixi şəxsiyyətlərin adını daşıyır və hər ikisi liman şəhəridir. Peterburq Nevanın, İskəndəriyyə Nilin mənsəbində yerləşir.

Bizim eranın əvvəllərində İskəndəriyyənin bir milyon əhalisi var idi. Bu gün Misirin şimal paytaxtı olan İskəndəriyyədə on milyon adam yaşayır. Biz bu şəhərlə çox gözəl anlaşdıq, bir-birimizi başa düşdük. Tanış olmayan şəhərdə əsas onun ruhunu tutmaqdır, necə yaşayır, nə ilə nəfəs alır? Mən ilk olaraq bu şəhərin ruhunu sevdim.

## *İSKƏNDƏRİYYƏ KÜTÜPHANƏSİ*

*Bir şəhərdə ən önəmli üç şey; kanalizasiya, hamam və kütüphanədir. Çünki kanalizasiya şəhərin kirini, hamam bədənin kirini, kütüphanə də ruhun kirini təmizlər.*
***Fateh Sultan Mehmet***

Bu da İskəndəriyyənin qəlbi - Makedoniyalı İskəndərin şəxsən özü tərəfindən yaradılan məşhur İskəndəriyyə kitabxanası! İskəndəriyyə mənim üçün bir çoxları kimi elə bu kitabxana deməkdir! Düz Aralıq dənizinin sahilində lövbər salan «Aleksandrina» adlandırılan bu kitabxana təəssüf ki, bizim bildiyimiz, oxuduğumuz, haqqında çox eşitdiyimiz ellinizm dövründə,

eramızdan əvvəl III əsrdə inşa edilmiş əfsanəvi kitabxana deyil. Antik İskəndəriyyə kitabxanası həm də Elmlər Akademiyası funksiyasını daşıyırdı. Əsərlər papiruslara yazılaraq saxlanılırdı. Mən bu papirus bitkisini canlı-canlı Qahirədə, Nilin bataqlıq sahillərində hələ görəcəyəm. Tünd yaşıl rəngli, hündürlüyü üç-beş metrə çatan bu bitkiyə həyəcansız baxa bilmədim. Üzərində necə şedevrlər yaranıb, onları düşündüm. Vətəni Misir olan papirus tarixə ilk kağız nümunəsi kimi düşüb. Ondan əvvəl perqament üzərində yazırdılar. Bitkinin qismətinə düşənə, bəşəriyyətə xidmətinə, insanlığa verdiyinə bax! Bu, sadəcə kitabxana deyildi, həm də mədəni mərkəz idi. Kitabxananın hətta öz rəsədxanası da var idi. Kitabxana şöhrətini on altı yaşına qədər İskəndərin müəllimi olmuş Aristotelin ölümündən sonra əlyazmalarının kitabxanaya verilməsi ilə qazanmışdı. Burada həndəsənin atası Evklid, Heron, Arximed kimi alimlər işləmiş, elmi kəşflər aparmışlar. Amerika astronomu, astrofiziki Karl Saqan «əgər zamanı geri döndərə bilsəydim, ilk gedəcəyim yer İskəndəriyyə kitabxanası olardı» - demişdi.

Misirlilərin dünya elmindəki ən böyük nailiyyəti Onluq hesablama sisteminin yaradılmasıdır. Elmin, incəsənətin böyük himayəçisi olan İskəndərin obrazı dünya mədəniyyətində xüsusi yer tutur. İskəndərin qəhrəmanlığı qədim yunan mifologiyasının qəhrəmanları Herakl və Axillesə bərabər tutularaq əfsanələşdirilmişdir. Belə ki, tədqiqatçıların ümumi qənaətinə görə, tarixdə qalan heç kəsin şəxsiyyəti nə İskəndər qədər marağa səbəb olub, nə də dünya ədəbiyyatında və incəsənətində onun qədər işıqlandırılıb. Quran-i Kərimin «Kəhf» surəsində Zülqərneynin adı cəkilir, Nizami Gəncəvi də «İskəndərnamə» poemasının qəhrəmanı üçün şərti olaraq Makedoniyalı İskəndəri prototip kimi götürmüşdur. Belə bir qayda qoyulmuşdu ki, İskəndəriyyəyə yan alan gəmilərin kitab yükü varsa, mutləq ya kitabxanaya satılmalı, ya da üzü köçürülməli idi. Fonda daxil olan kitablar, əlyazmalar, xəritələr xüsusi ekspertlər tərəfindən saf-çürük edilir, ancaq ən qiymətliləri saxlanılırdı. Burada təsadüfi heç nə yox idi. Bu kitab cənnəti dama-dama belə yığılmışdı. Bu gün həmin o kitabxanaya məxsus kiçik bir mətn belə qalmamışdır. İndi Aralıq dənizinin sahilinə qeyri-adi, disk formasında bir bina zinət verir. Dam örtüyü şüşədən Ibarət olan bu modern kompleks yeni İskəndəriyyə kitabxanası, XXI əsrin ilk memarlıq nümunələrindəndir. 1995-ci ildə Misir prezidenti Hüsnü Mubarək tərəfindən ilk daşı qoyulan, 2002-ci ildə oxucuların istifadəsinə verilən bu bina dəfələrlə yanğınlara məruz qalmış, dağıdılmış, məhv edilmiş, itirilmiş antik kitabxananın təxmini yerində UNESKO-nun təşəbbüsü ilə tikilmişdir. Vaxtilə şöhrəti dünyanın yeddi möcüzəsindən biri olan İskəndəriyyə mayakını da kölgədə buraxan İskəndəriyyə kitabxanası heç olmasa keçmiş adını da olsa, bərpa edə bildi. Qədim kitabxananın girişindəki lövhə isə bu gün də saxlanılmaqdadır və məncə bu, kitabxana-muzeyin ən qiymətli eksponatıdır: «Elm bizi tanrıların qəzəbindən qurtarır».

Bu bir cümlə gələcəyə işıq salmaqla bərabər, həm nəsihət, həm də vəsiyyət kimi səslənir.

Antik İskəndəriyyə kitabxanası düz altı yüz il fəaliyyət göstərdi. Elə tarix üçün də sanballı rəqəm sayılan bu yuvarlaq altı yüz ildə bəşəriyyət nə qazandı, sonra nə itirdi, bu da uzun bir söhbətin mövzusudur. Amerika yazıçısı Rey Bredberi yazırdı: «On doqquz yaşım olanda kollecə daxil ola bilmədim, çünki ailəm kasıb idi. Pulumuz olmadığı üçün kitabxanaya getməyə başladım. Həftədə üç gün kitabxanaya gedib kitab oxuyurdum. İyirmi yeddi yaşımda universitet əvəzinə kitabxananı bitirdim». Rey Bredberi daha sonra

«Farengeyt üzrə 451 dərəcə» (kağızın yanma dərəcəsi) əsərində yazırdı: «Kitabları yandırmaqdan da ağır cinayət işləmək mümkündür...Onları oxumamaq, məsələn...».

Hitler əvvəlcə Berlinin küçələrində kitabları yandırmaq əmrini verirdi, sonra ölüm düşərgələrində insanları... Ağrılı kitab qətliamı mövzusuna dahi Səməd Vurğun «Yandırılan kitablar» əsəri ilə öz möhürünü vurmuşdur:

***Cəllad, sənin qalaq-qalaq yandırdığın kitablar***
***Min kamalın şöhrətidir, min ürəyin arzusu...***
***Biz köçürük bu dünyadan, onlar qalır yadigar,***
***Hər vərəqə nəqş olunmuş neçə insan duyğusu***
***Min kamalın şöhrətidir, min ürəyin arzusu!***

Bu kitabxananın üç dəfə diri-diri yandırıldığı söylənilir: xristianlar tərəfindən, Yuli Sezar, Kleopatra, Xəlifə Ömər tərəfindən vaxtaşırı qətlə yetirildiyi barədə müxtəlif rəvayətlər nəsillərdən nəsillərə ötürülür. Xəlifə Ömərin «bu kitabların verdiyi biliklər Quran-a müxalif isə haramdır, Quranla eyni isə gərəksizdir» kimi bir fikir söylədiyi də iddia edilir. Fizika üzrə Nobel mükafatı laureatı Pyer Küri isə belə demişdir: «Yandırılan bir milyon kitabın yarısı qalsaydı, indi biz uzaq qalaktikalar arasında dolaşırdıq». (İndi İskəndəriyyə kitabxanasının fondunda səkkiz milyon kitab saxlanılır).

* * *

Aralıq dənizinin dibi təkcə Neptunun səltənəti deyilmiş! Sən demə, daha bir İskəndəriyyə suyun altında imiş! Dəhşətli zəlzələlər və kataklizmlər şəhərin əsas tarixi abidələrini dənizin altına aparmış, İskəndəriyyənin gələcək sualtı turizmini təmin etmişdir. Günü bu gün dayvinqlə dənizin dərin qatlarına düşüb orada məşhur İskəndəriyyə mayakının xarabalıqlarını, Kleopatranın sarayını, qədim İskəndəriyyənin küçələrini görmək olar. Nə mümkündürsə, xilas edilmişdir. Dənizin dərinliyindən arxeoloqlar tərəfindən tapılıb üzə çıxarılmış çar II Ptolomeyin on iki metr hündürlüyündə olan heykəli İskəndəriyyə kitabxanasının önündə məskunlaşmışdır. Etiraf edək ki, hər şəhər belə tarixi sualtı arxeoloji tapıntıları ilə fəxr edə bilməz. İndi də İskəndəriyyənin daha bir tarixi abidəsi, mütləq görməli yeri Sultan Kayıtbəy qalası haqqında... Əslində, Sultan Kayıtbəy qalasının yerləşdiyi ərazi Faros yarımadası adlanır. Eramızdan əvvəl 285-ci ildə İskəndəriyyə şəhəri ilə birləşdirilmiş ada Nilin deltasında yerləşir. XIV əsrdə İskəndəriyyə mayakı zəlzələ nəticəsində yerləyeksan olandan sonra Məmlük hökmdarı Sultan Kayıtbəy dövrünün «Şeyx-ül-mühəndis»lərini toplayaraq onun yerində və bünövrəsində qala tikməyə qərar verdi. Sözün müstəqim mənasında epoxaların birləşdiyi qalanın inşasında Faros mayakının qalıqlarından və daşlarından istifadə edildiyi üçün elə bil birbaşa tarixə toxunursan. Faros mayakı min il həm öz vəzifəsini yerinə yetirmiş (onun zirvəzində daşdan kabinə var imiş, bu kabinədə gəmilərə yol göstərmək üçün tonqal qalanarmış), həm müşahidə məntəqəsi kimi şəhəri dəniz tərəfdən gələ bilən təhlükələrdən qorumuş, həm də böyük İskəndərin böyük arzusu olan İskəndəriyyəni daha da məşhurlaşdırmışdır. Üçmərtəbəli mayakın qülləsində postament rolu oynayan günbəzin üzərində dənizlər allahı Poseydonun səkkiz metr hündürluyündə, hətta qızıldan olduğu iddia edilən heykəli sahilə yan alan gəmiləri on əsr salamlamışdır.

Faros mayakı haqqında tarixə «tarixin atası» kimi düşən Herodot özü yazandan sonra onun şöhrəti daha da artdı, möçüzəsi təsdiqləndi.

## QAHİRƏYƏ DOĞRU

Biz İskəndəriyyədən ayrılanda axşam saat on idi, biz bu şəhərə qaranlıqda gəlmişdik, elə axşam saatlarında da tərk edirik.

Qahirəyə çatanda gecədən keçmişdi. Heç eşitmisiniz ki, hansısa bir şəhərin gündüzünü vəsf eləsinlər? Gecə hər yer şairanə görünür, əyər-əskiyi gizlədilir, gözəlliyi üzə çıxır. Bakının, Neapolun gecələri, Peterburqun bəyaz da olsa, gecələri haqqında əfsanələr dolaşır. Gecə hər bir şəhər özünün qara paltarını geyinir, şəhərin işıqları da bu paltarın bəzəyi, daş-qaşıdır. İş elə gətirdi ki, Qahirəni də ilk dəfə ziyafət geyimində gördük və çox da yaraşdırdıq (Allah yaraşdırmasın). Gecə geyimi belə parıltılı, şıq olan bir şəhərin gündəlik paltarının necə çirkli, nimdaş olduğunu yaxın günlərdə çox görəcəyik, indi isə hələ yenicə tanış olmağa başladığımız bu qədim və əbədi şəhərin yeni qonaqları olan bizlərdə buraxdığı ilkin təəssürat ən yüksəkdir. İlk təəssürat cox önəmlidir, hər şey demək olmasa da, çox şey deməkdir. Psixoloqlar yeddi saniyənin gücü barədə qalın-qalın kitablar yazıblar.

## MAADİ

Maadi şəhər içinə yaxın yerləşən, həyat səviyyəsi yüksək olan bir şəhərcikdir. Bir əsr əvvəl varlı yəhudi tacirləri tərəfindən salınmışdır. Burada yaşamaq böyük prestij, şan-şöhrət sayılır. Maadi şəhərin böyük rayonu hesab edilsə də, iyirmi milyonluq Qahirənin kiçik bir dilimidir.

Burada bir çox dövlət əhəmiyyətli idarələr, Qahirə Amerika Kolleci, Qahirə Fransa liseyi, Misir-Amerika kolleci, Maadi Britaniya Beynəlxalq Məktəbi və s. kimi hörmətli-izzətli təhsil ocaqları fəaliyyət göstərir. Ona görə Amerika səfirliyinin əməkdaşlarının ailələri də burada yaşayırlar. Ümumiyyətlə, bu təhsil komplekslərinə görə uşaqlı xarici vətəndaşlar yaşayış yeri olaraq Maadiyə üstünlük verirlər. Yerli əhalinin varlı zümrəsi də uşaqlarını burada oxutdurur, o səbəbdən də rayonun populyarlığı və dərəcəsi xeyli artır. Bura eyni zamanda səfirliklər şəhərciyidir. Azərbaycan səfirliyi başda olmaqla burada Ukrayna, Tacikistan, Keniya, Koreya, Meksika, Yaponiya, İsrail və b. ölkələrin səfirlikləri də yerləşir. Maadidə çox sakit atmosfer hökm sürür. Yaşayış evləri üç-beş mərtəbəli yaraşıqlı binalardan, gözəl villalardan ibarətdir. Və Maadidə hər bir ev, hər bir küçə tamamilə qalın ağacların, kolların, gül-çiçəyin içərisində itib-batır. Bura yaşayış rayonundan daha çox, dendraziyə oxşayırdı. Qalibiyyət simvolu olan bəzək palmaları, üstü cənnət meyvəsi ilə dolu xurma palmaları, planetin ən qədim bitkisi olan kaktuslar, həmişəyaşıl, hündürlüyü beş metrə çatan begonvil kolları, dinozavrlardan, təbaşir dövründən qalan maqnoliyalar, ağ, sarı akasiyalar, oleandrlar, sarmaşıq kimi divara dırmaşan fikus ağacları o qədər artıb-çoxalıb bir-birinə qarışmışdı ki, mədəni bitki olmaqdan çıxıb yabanı təsir bağışlayırdı. Bakıda klinikaları, ofisləri bəzəyən, şitilliklərdə, gül salonlarında od qiymətinə satılan dekorativ güllər burada küçələrə tökülmüşdü.

# QAHİRƏDƏ BİRİNCİ GÜN

*-Ən başlıcası həyata sevinməkdir!*
*-Əgər alınmırsa?*
*-Xasiyyətini dəyişdir .*
***M.Veller***

*İnsan həmişə xoşbəxt olmalıdır,*
*əgər xoşbəxtliyin tükənirsə, səhvini axtar.*
***L.N.Tolstoy***

Qahirə ayrı-ayrı dövrlərdə dünyanın anası, Şərqin qapıları, min minarəli şəhər adlandırılmışdır, dinin təsiri güclü olsa da, tolerantlıq da göz qabağındadır. Demək olar hər məscidin yanında bir kilsə var, hətta sinaqoq da! Amma Qahirə tək minarələr, piramidalar şəhəri deyil, burada görməli, baxmalı o qədər yer var ki, nə qədər çox qalsan da yenə mütləq nəyi isə qaçıracaqsan. Rəsmi adı Əl-Qahirə olan bu şəhər Misir Ərəb Respublikasının paytaxtı, Afrikanın ən böyük şəhərlərindən biridir.

Bugünkü Qahirə ikili həyat tərzi keçirir. Bir tərəfdə az qala özü də bir şəhər böyüklüyündə olan göydələnlər, digər tərəfdə insanlar yaşayan məzarlıqlar... (Qahirənin mərkəzində XX əsrin 80-ci illərində salınan bu şəhər-məzarlıqların sakinlərinin «qonşu»ları İskəndəriyyədən, Kayıtbəy qalasından tanıdığımız Sultan Kayıtbəy də daxil olmaqla Məmlük sultanlarıdır... Altı kilometr boyunca davam edən bu min ilin qəbirisanlığında yüz min adam sərdabələrdə, mavzoleylərdə rəhmətliklərlə bir yerdə yaşayır, işləyir, hətta oxuyurlar da… Bu dövlətin üz qarası olduğu üçün üstündən sükutla keçilir). Amma, bütün bu sadaladıqlarım Qahirənin turist şəhəri imicinə zərbə vurmur, heç bir reklama da ehtiyacı yoxdur. Özünün hərtərəfli, rəngbərəng ekzotikası ilə cəlb etməkdə davam edən Misir dünya turistlərinin Məkkəsi adını çoxdan qazanmışdır.

…Mələk küçəsi ilə xeyli getdik, birinci dəfə Nili gördük. Şəhərə tamaşa edə-edə gəlib çatdıq paytaxtın anası Təhrir meydanına. Şəhərlə əsl tanışlıq elə buradan başlayır. Adi günlər bura heç nə ilə fərqlənmir. Ətrafı adam qaynaşan Qahirə Muzeyi ilə, qarışqa yuvasını xatırladan Sadat metrostansiyası ilə, lüks otellərlə əhatə olunmuş Təhrir meydanı özü də Dauntaun (Dauntaunun nə olduğunu artıq bilirsiniz, şəhərin qədim, mərkəzi hissəsinə deyilir) adlanan rayona aiddir və Qahirənin Azadlıq simvoludur. Bu ərazi günün iyirmi dörd saatı hədsiz intensiv yol hərəkətinin təzyiqi altındadır. Bu həmin o əfsanəvi Təhrir meydanıdır ki, Misirin tarixi əhəmiyyətli hadisələri məhz buradan başlamışdır. Nilin sağ yaxasında yerləşən bu meydan dünyanın ən böyük meydanlarından biridir. Bakı da daxil olmaqla dünyanın bir cox şəhərlərinin baş meydanı Azadlıq meydanı adlanır və bu meydanın şəhərin həyatında mühüm yeri olur. Bura Təhrir (Azadlıq, Qurtuluş) meydanı olmamışdan çox əvvəllər İsmailiyyə meydanı adı ilə tanınırmış. 1879-cu ilə qədər Misirin baş naziri olmuş Hədiv İsmayıl Paşa Parisdə təhsil almış Avropa meyilli bir dövlət xadimi idi. Onun «Nil üzərində Paris» yaratmaq layihəsi ölkəni müflisləşdirmək dərəcəsinə gətirib çıxartmışdı. İsmailiyyə meydanı 1919-cu il Britaniya işğalına qarşı Misir üsyanlarından sonra Təhrir meydanı adı ilə çağırılmaga başlandı, 1952-ci ildən isə rəsmi olaraq Təhrir meydanı adını aldı. Təhrir meydanı bizə 2011-ci il inqilabından, Misir xalqının azadlıq mücadiləsindən tanış idi, amma bilmirdik ki, burada həm də dünyanın ən nəhəng mu-

zeylərindən, incəsənət ocaqlarından biri - Misir mədəniyyətinin altı min illik tarixini əhatə edən Qahirə Milli Muzeyi yerləşir. Mən Qahirəni «Səfillər»in Qavroşuna bənzətdim, daha goğrusu, səfil, çirkli, baxımsız, sahibsiz hissəsini...

Qahirə mənim yadıma Tenardyelərin tərk edilmiş oğlu Qavroşu saldı. Viktor Hüqonun barrikadalarda mahnı oxuya-oxuya inqilabçılara patron daşıyan kiçik qəhrəmanı ilə uşaq təbiətli qoca Qahirə arasında ancaq özüm anlayan bir oxşarlıq gördüm.

## QAHİRƏ MUZEYİ

*Muzey sizdən, zənginləşdirmək məndən.*
***Pablo Pikasso***

Muzeylər tarixin özüdür, tarixin qəlbi müzeydə döyünür, muzey ölkənin tarixinin göstəricisi, sübutudur, muzeyi olmayan ölkənin tarixindən, mədəniyyətindən söhbət belə gedə bilməz, misal üçün, dünyanın ən gənc və varlı dövləti Qətərin paytaxtı Doha kimi... Burada gözəl muzey binası var, bu binada gözəl zallar, kinoteatr var, eksponatları isə, deyək ki, Fransanın neçənci dərəcəli şəhərində hansısa fəvvarənin kənarından qopan bir bəzəkdən ibarətdir.

Misirin tarixi qırx yüzilliyi əhatə edir. Qədimliklə eyni assosiasiya doğuran Misir elə qədimliyin özüdür. Qədim Misirdən dünya sivilizasiyasına qiyməti-çəkisi olmayan mədəni miras qalmışdır.

Qahirə muzeyi Misirin ikonalarından biridir. Bu gün Qahirə muzeyində 160 000 nadir eksponatdan ibarət bir xəzinə nümayiş olunmaqdadır. Burada böyük-kiçikliyindən asılı olmayaraq bir dənə də olsun səni özünə çəkməyən, heyran etməyən nümunə yoxdur, muzey bütünlüklə qızıl fonddan ibarətdir. Ən gənc eksponatın iki min yaşı var. Muzey ilk olaraq 1891-ci ildə Misirin Əl-Gizə şəhərində yaradılmış, 1902-ci ildə isə Qahirəyə daşınaraq açılışı olmuşdur.

Qahirə muzeyi bugünkü ehtişamına görə, fransız arxeoloqu və misirşünası Fransua Oqyüst Ferdinan Mariettə borcludur. 1850-ci ildə Luvrda işini buraxaraq Qahirəyə gələn Mariett ömrünün sonuna qədər Misirə, tutduğu yola sadiq qalmışdır. Misirin bu misilsiz sərvətini yağmalanmaqdan, satılmaqdan, oğurlanmaqdan, itirilməkdən qorumaq məqsədilə bütün qiymətli əsərləri toplum halına gətirən Oqyüst Mariett özünə insanlığın qəlbində minnətdarlıq abidəsi və yaratdığı muzeyin bağcasında əbədi heykəl ucaltmışdır. Elə muzeyin ilk direktoru da Oqyüst Mariett özü olmuşdur. Arxeoloqun ölümündən sonra qədirbilən Misir xalqı onun nəşini də buraya gətirərək muzeyin həyətində mərmər sarkofaq icərisində dəfn etmişdir. Oqyüst Mariett bağçanın dərinliyində əbədi bürünc heykələ dönmüşdur. Misirin milli geyimində, başında fəs ağ postament üzərində dayanan Mariett Paşanın (üzərində ehtiramla elə belə də yazılmışdır: Mariett Paşa. Misirdə bu gün də Osmanlıdan qalma «əfəndi», «paşa» kimi müraciət formaları saxlanılmışdır) gözü yenə də muzeyin üstündədir. Bir millətə xidmət edən sonunda onun əfəndisi olur.

Muzeyin binasının arxitekturası da Fransadan olan memar tərəfindən neo-klassik üslubda işlənmişdir və dünyada məxsusi muzey üçün tikilən ilk binadır. Kənardan baxanda bina kimi binadır, amma içərisini görüb çıxandan sonra ağla ilk növbədə gələn muzeyin xarici görünüşü ilə daxili zənginliyi arasındakı aşkar bir uyumsuzluq olur. Bir az köhnə, bir az tökülmüş, bir az kiçik, bir az da bədrəng binanın içərisində nələr var, nələr! Zarafat deyil,

muzeyin açılışından yüz on altı il keçıb, bu müddət ərzində nə qədər sular axıb, memarlıqda necə inqilablar olub, tendensiyalar dəyişib…Yəqin binanın özünə də növbə çatar, amma hələ ki, buraya «əvvəl evin içi, sonra çölü» misalı uyğun gəlir. Muzeyin həyatinə daxil oluruq.

Kərpic rəngli binanın qarşısında fəvvarəli böyük hovuz yerləşir. İçində mavi Nil zanbaqlarının kök saldığı hovuzun dörd küncündə maraqlı heykəllər qoyulub. Elə Cfinksin heykəli nəyə desən dəyərdi, lap qabaqda və daha böyük idi. Onunla şəkil çəkdirib içəri keçdik. Muzeyin girəcəyində qədim Misirin simvollarını ehtiva edən iki fiqur daha var, bunlardan biri papirus, digəri nilufərdir (su zanbağı).

İkimərtəbəli binanın qapısından girən kimi bir anlığa çaşıb qalırsan, bura haradı görəsən? İlk baxışda bu salon mənə ağacları daşdan, qranitdən, betondan olan qalın bir meşəni xatirlatdı. Elə bil məni tutub bərk-bərk silkələdilər. Mən hər şey gözləyirdim, bircə bunu yox… Bu yüz zaldan ən böyüyü, həm də muzeyin əsas zalı idi. Hər tərəfdən nəhəng heykəllər ağır-ağır üstünə gəlirdi, qorxu filmlərində olduğu kimi, tək-tək, cüt-cüt, ailəvi... Sağdan, soldan, öndən, arxadan, sütunların arasından… Hələ ikinci mərtəbədən boylananları demirəm..

Özü də bu heykəllər xüsusi qaydalar əsasında düzəldilmiş, özlərinin müəyyənləşdirdikləri kanonlar gözlənilmişdir, məsələn, allahların, fironların heykəlləri eyni tipli olmalı, profilləri eyni tərəfə baxmalıdır, fərq yalnız üz cizgilərində bilinməlidir. (Mən də həmişə düşünürdüm ki, bunlar niyə görəsən çiyinlərinin üstündən bir istiqamətə baxırlar?) Qədim Misirin günəş allahı Ra isə mütləq qartal başlı olmalı idi. Yeri gəlmişkən, Misirin Dövlət bayrağının və gerbinin simvollarından biri də qartaldır. Heykəllərin gözləri sapfir daşından düzəldilmişdir, işıqlandırılanda daha da canlı görünür. Bilmirsən, sən onlara baxırsan, yoxsa onlar sənə... Özləri də elə bil düz adamın gözlərinin içinə baxırlar, hətta arxanca da süzürlər.

Mistikadan əziyyət çəkməsəm də, adam bir az xoflanır, axı sənə baxan, müşahidə edən, izləyən gözlər bir-iki cüt deyil, bütöv bir muzeydir. Amma tezliklə bu xof keçir. Və sən bütünlüklə gördüklərinin əsirinə çevrilirsən! Özün də hiss etmədən əriyib bu izdihama qarışırsan. Ən əsası da burada gördüklərini demirəm, buna bənzəyəni də başqa heç bir yerdə görə bilməyəcəksən! Mən həyatımda bu böyüklükdə bu qədər heykəli bir yerdə görməmişdim, daşdan ordumu deyim, ya heykəllərin nümayişimi? Bu daş əsərlərə baxarkən ağlıma gəldi ki, yəqin Misirdə incəsənətin bu növünə maraq, həvəs və sevgi gen yaddaşından gəlir. İskəndəriyyənin küçələrində də insan, heyvan abidələri görmüşdüm, halbuki, başqa ərəb ölkələrində qanunla yasaqdır. Hətta Qahirədə qadın heykəlinə də rast gəldim. Ağ pyedestal üzərində uzun paltarda bütün boyu bərabəri ucalan bu tunc xanımın Misirin priması Ümmü Gülsüm olduğunu dedilər. Misirin bu məşhur ulduzunun adını ilk dəfə həyat yoldaşımdan eşitmişdim. 80-ci illərdə Qahirəyə elmi ezamiyyətdən evə dönəndə çemodanından əzizləyə-əzizləyə bir maqnitafon kaseti çıxartdı və içindəki səs yazısının həmin bu Ümmü Gülsümə məxsus olduğunu söylədi. Sonra da əlavə etdi ki, onu şərafətlə Misirin dördüncü piramidası adlandırırlar. Burada onun haqqında daha çox şey öyrəndim. Məsələn, Ərəb-İsrail müharibəsində Misirin məğlubiyyətindən üzülən müğənni dövləti sınmasın deyə, qastrollardan qazandığı iki milyon yarım sterlinqi özünün daş-qaşı ilə birlikdə Misir hökumətinə bağışlamışdı. Onu son mənzilə yola salanların sayı elə Ümmi Gülsümün böyük pərəstişkarı olan Misir prezidenti Camal Əbdülnasirin cənazə törəninə qatılanların sayını keçibmiş. Nümunədi, örnəkdi, həm də

böyük ibrət!Adam çox olmasına baxmayaraq muzeydə hamı sakitliyi qoruyurdu, lap tək olsan belə, pıçıltı ilə, işarə ilə danışmaq istəyirsən, şərait özü bunu tələb edirdi. Hamı ehtiyatla barmaqlarının ucunda gəzirdi, eşidilən yalnız xəzəl xışıltısına oxşar ayaq səsləri idi.Muzeylərdə tək gəzmək də yaxşıdır, bələdçi ilə də, hərəsinin öz üstünlüyü var. Bələdçi əlindən tutub birər-birər gəzdirir, amma tez-tez danışır, bilmirsən baxasan, ya dinləyəsən… Nələrisə qaçıra bilərsən… Bələdçi ilə ancaq baxırsan, təklikdə isə həm də görürsən. Öz aləminə qapılıb muzeyin mərmər zallarını bir-bir, tələsmədən, öyrənə-öyrənə gəzirsən, hər şeyi yadında saxlamağa çalışırsan.

Gəzə-gəzə Maşa meşədə azan kimi qızlardan ayrıldım (nahaq yerə əvvəldə buranı meşəyə oxşatmamışdım ki?). Birdən yöndəmsiz bir şeyə ilişib dayandım. Üzbəüzdən iki cüt heybətli ayaq mənə baxırdı. Başımı qaldıranda nə görsəm yaxşıdır? Tövbə, bismillah! Bu nədir? Fantastika! Bu firon III Amenxotepin və onun arvadı çariça Tiyanın əsas zalın lap sonunda tən ortada qoyulmuş on metr hündürlüyündə nəfəs kəsən heykəli idi. Bu heykəlin başqa ailəvi heykəllərdən fərqi onda idi ki, qadınla kişi eyni boyda düzəldilmişdi, bu da kanonlara zidd idi. Hər halda bu çariça Tiyaya olan sevgi və sayğının əlaməti idi. Onların da arasında oğulları kiçik Xanuttaneb dayanmışdı. Qədim misirlilərin etiqadına görə, ruh heykəldə yaşaya bilərdi. Ölən firon ailəsinin heykəlini də əzəmətli yaradırdılar. Firon siyasi lider hesab edilirdi. Bu heykəl Luksordan gətirilmiş, muzeyin ozündəcə bərpa edilmişdi. Bağlı məkanda bu boyda monument, özü də qoşa-qoşa! Qum rəngində olsa da, işıqlandırıldığı üçün sarıya çalan bu heykəl çox da böyük olmayan təməl üzərində qoyulmuşdu. (Daha hara? Postament də hündür olsaydı, binaya boy verməyəcəkdi). Sonradan bildim ki, əslində bu heykələ sonda baxmaq lazım imiş, ən yaxşı şeyi axıra saxlayarlar a, bax elə! Mən isə özbaşınalıq edərək həm özümü böyük finalın sürprizindən məhrum etmiş, həm də qaydanı pozmuşdum. Eybi yoxdur, qaydalar elə onları pozmaq üçündür. Əgər qaydaların dalınca düşsək, əylənmək fürsətini əldən verərik…

İndi bu heykəldən ayrıla bilmirdim, həm nə gizlədim, bir az aludəçiliyim də var... Lakin heykəl də ayrılmalı heykəl deyildi axı! Süjetli olduğu üçün lap maraqlı idi, elə də mehriban oturmuşdular ki, sanki canlı idilər! Görəsən bunu düzəldən necə adam olub? Bir də gördüm həmin heykəltəraş haqqında, onun bu ailə ilə bağlılığı, naturadan işləyib-işləməməsi barədə düşüncələr məni bu salondan çıxarır... «Bu barədə sonra, Delya! Evdə şəkillərə baxanda!» - deyib dayandım. Sözün əsl mənasında bir xeyli zaman bu cütlüyün başına fırlanandan, müxtəlif rakurslarda onlarla xatirə şəkli çəkdirəndən sonra, quruyub qaxaca dönmüş mumiyalar, Tutanxamon kimi «şən» eksponatlar yadıma düşdü. Hələ bu muzeyin ən qiymətli otağı, yeddi qıfıl arxasında qorunan Tutanxamonun xəzinəsini demirəm … (On səkkiz yaşında dünyasını dəyişən Tutanxamonun qəbri dünyanın ən zəngin sərdabəsi hesab olunurdu. 1922-ci ildə sərdabə açılandan sonra onun üç min beş yüz ədəd cer-cehizinin muzeyə daşınması, yerləşdirilib siyahıya alınması beş il vaxt aparmışdı. Gənc firona aid zalda iki yüz kiloqram (!) qızıl əşya saxlanılır). Bir gözüm bu daş ər-arvadda qalsa da, qızlara qoşulub ikinci mərtəbəyə qalxdım.Yuxarıdan baxanda əsas zalın möhtəşəmliyi ovuc içi kimi görünürdü.

Muzey yunan sözü olub muzaların məbədi deməkdir. Gör neçə saat idi burada idik, arı çiçəkdən-çiçəyə qonan kimi, biz də bir heykəldən o birinə keçir, yenə geri qayıdırdıq. Belə getsəydi, gecəyədək burdaydıq.

Qədim dünyanın ən müəmmalı, sirli qadınlarından və Misirin bir nömrəli simvollarından olan Kleopatranın büstü də Qahirə muzeyində öz yerini tutmuşdur. Çoxsaylı titullarından biri də «sonuncu firon» olan Kleopatra nəinki qədim Misirin, bütün dövrlərin ən məşhur isimlərindən biri olmuşdur. Diplomatiyanın gücü çatmayan məsələləri bir qayda olaraq Kleopatra yoluna qoyurdu. Əsir düşməmək üçün özünü ilana çaldıran Misir hökmdarı Kleopatranın adı ətrafında əfsanələr, rəvayətlər dolaşmaqdadır. Əfsanə qadın Kleopatra Yuli Sezar və romalı sərkərdə Mark Antonio ilə məhəbbət romanları yaşamışdır ki, bu da bir çox bədii əsərlərin və filmlərin mövzusuna, süjet xəttinə çevrilmişdir. Tarix boyu adı, şəxsiyyəti sirr, sehr oreolu ilə əhatə olunan məşhur qadınların siyahısının mütləq lideri bu gün də Misir çariçası Kleopatradır. Kleopatranın ikinci, əbədi həyatı ölümündən sonra başlamışdır, belə ki, Kleopatra doğulduğu gündən zəmanəmizə kimi ən məşhur misirli adını təkəbbürlə daşımaqdadır. Muzeyin ekzpozisiyasında heykəltəraşlıq özünün bütün təzahürlərində təmsil edilmişdi: alleqorik, məişət, mifoloji, portret və başqa janrlarda…

Bir az dincəlmək, su içmək üçün muzalardan «icazə alıb» (necə olsa, onlar da qadındır) pilləkənlərdə oturdum. Buradan, sütunların arasına yerləşdirilmiş mərmər tağlar, Roma dönəminə aid heykəllər görünürdü. Bu heykəllər, həm incə, həm də estetik baxımdan daha gözəl idi.

Psixologiyada hərəkətlərin də yoluxucu olduğu söylənilir. Elə təzəcə oturmuşdum ki, dərhal bir dəstə koreyalı qız tökülüşüb özlərini yan-yörəmdə pilləkənlərə sərdilər, bizim qızlar da gəlib çıxdılar, qalxıb düşənlər isə bunun bir fləşmob olduğunu düşünüb onlar da bizə qoşuldular, bədahətən, həm də maraqlı kollektiv bir şəkil alındı.

Ekskursiyamızı bitirib muzeydən çıxdıq, daxilən nə qədər zənginləşdiyimizi hələ isti-isti hiss etmirdik.

## QAHİRƏ QALASI (əl-Qalaa), MUZEYLƏRİ, MƏSCİDLƏRİ

*Mən yalnız öz fikirlərimə qüvvət sitatdan istifadə edirəm.*
***Mişel de Montyen***

Bu gün yolumuz «Orta çağ Qahirə»sinədir, bu rayon həm də şəhərin ən mötəbər yeri sayılır.

Qahirə qalası (əl-Qalaa) XII əsrdə Sələhəddin Eyyubi tərəfindən ucaldılmışdır (1176-1183). XI-XII əsrlərdə Qərbi Avropa ölkələrinin Yaxın Şərqə etdikləri Səlib yürüşlərindən güclü müdafiə məqsədi güdürdü. «Sələhəddin qalası», «Məhəmməd Əli Qalası» kimi adlarla tanınan bu abidənin yerləşdiyi təpə əhəngdaşından olub yetmiş beş metr yüksəklikdədir. Bu tarixi tikinti üçün yeri sultan Sələhəddin təsadüfən seçməmişdir. Sultan əmr etmişdir ki, Qahirənin bütün nöqtələrindən ət parçaları assınlar, ertəsi gün tək bu radiusdan başqa hər yerdə ət iylənməyə başlayır və beləliklə, gələcək qala üçün ən ideal ərazi müəyyən edilir. İstehkam kimi nəzərdə tutulduğundan mühasirəyə nə qədər tab gətirəcəyi, qida məhsullarının saxlanılma müddəti, sanitariya və gigiyena kimi vaclb məsələlər nəzərə alınırdı. Qalanı «şəhər içində şəhər» kimi düşünən sultan onun çevrəsində doxsan metr dərinliyində quyu da qazdırmışdı, düzdür, indi bu quyu pək işlək vəziyyətdə deyil, amma təsəvvür etmək olar ki, təmizlənib qaydaya salınsa, belə dərinlikdən çıxan su abi-həyat olar.

Kompleksin kazarmaları, anbarları hələ də durur.

Əvvəlcə qalanı gəzməyi qərara aldıq. Bugünkü ekskursiyamız mahiyyətinə görə rəngarənglik vəd edirdi, belə ki, on səkkiz hektarı əhatə edən sahədən çıxmamaqla, həm qalanın özünü, həm burada yerləşən zəngin muzeyləri, eləcə də məscidləri görə biləcəkdik. Ən axırda isə bizi terrasdan Qahirənin möhtəşəm mənzərəsinin seyri gözləyirdi. Əslində, Qahirədə 1961-ci ildə altı milyon Amerika dolları dəyərində yüz səksən yeddi metr hündürlüyündə, doxsan mərtəbəli «Bürc Qahirə» televıziya qülləsi də tikilmişdir ki, buradan hətta ehramlar da görünür. Bu qüllə Xeopsun məşhur piramidasından da qırx üç metr hündürdür və yüksəkliyinə görə dünyada dördüncü qüllədir. Teleqüllənin tikintisində çox möhkəm material olan çəhrayı Asuan qranitindən istifadə edilmişdir. Gövdəsi Şərq üslubunda, yuxarıya doğru sanki zanbaq formasında toxunmuşdur, son üç mərtəbədə kafe-restoranlar və böyük seyr meydançası yerləşir. Burada ofisiantlar firon geyimində xidmət göstərirlər. Başqa şəhərlərdəki analoqu olan qüllələrdən fərqi isə gövdəsinin ayrı-ayrı betonlardan deyil, tək monolit betondan tökülməsidir.

Qüllədəki restoranın xatirə kitabında dünyanın bütün prezidentlərinin, görkəmli siyasi xadimlərin, dünya ulduzlarının imzası var. Amma mənim üçün qalanın yerini vermədi. Mən Səlahəddin qalasını rəmzi mənasına görə Nyu-Yorkun Azadlıq heykəli ilə, Rio de Jeneyronun qollarını şəhərin üzərinə gərmiş İsa Məsih abidəsi ilə müqayisə edərdim.

Teleqüllə isə XX əsr Qahirəsinin şah əsəridir.

* * *

Qalanın nəzdində maraqlı muzeylər fəaliyyət göstərir.

Milli polis muzeyi XIX əsr Misir Daxili İşlər Nazirliyindən başlamış keçmiş zamanlara qədər uzun bir yolu ekspozisiyasında canlandırır. Heç belə bir muzeydə olmamışdım, yəni, sıradan bir muzey də deyildi əslində… Fironların zamanından tutmuş hər dövrə aid portretlər, silahlar nümayiş edilirdi. Hətta II Ramzesə qarşı olan sui-qəsd də ekzpozisiyada öz əksini tapmışdı.

XX əsr zalı yaxın keçmişin kriminal aləminə həsr edilmişdi.

Qala müdafiə məqsədli olduğu üçün burada Polis muzeyinin, bir azdan gedəcəyimiz Hərbi muzeyin yer alması maraqlı düşünülmüşdür. Bundan başqa bu sırada Kral karetaları muzeyi, Gömrük muzeyi və daha başqa kiçik muzeylərlə də tanış olmaq olar.

* * *

Qahirə əsl Şərq, ərəb şəhəridir.

Qahirəni Qahirə edən məscidləridir.

Onun siluetini məscidləri formalaşdırır.

Burada beş yüzdən artıq Allah evi var, bu da dolayısı ilə onun uzun müddət islam aləmindəki aparıcı mövqeyindən xəbər verir.

«Quran-i Kərim Məkkədə nazil oldu, İstanbulda yazıldı, Qahirədə oxundu», - deyirlər. Tarixi Qahirə qalasının ərazisində üç məscid var, hamısını bir-bir gəzdik.

Bu məscidlərin hər biri iki hissədən ibarətdir; özü və böyük həyəti.

XIV əsrə aid Sultan Nəsir məscidi uzun müddət qalanın baş məscidi olmuşdur. Sultan Həsən Qahirənin ən iri məscidlərindən biridir, haqqında maraqlı faktlar söylənilir. Əfsanəvi ehramların daşlarından tikilməsi, özünün şəxsi mədrəsə və xəstəxanasının da olması onu başqalarından fərqli, üstün edir. Orta əsrlərdə taun kimi yoluxucu xəstəliklərin geniş hal aldığı bir dövrdə

özünün özəl xəstəxanası ilə hansı məscid öyünə bilərdi? Bu xeyirxah əməldə həm də məşum taunun apardığı biçarələrin də payı var, belə ki, taundan dünyasını dəyişmiş kimsəsiz insanların əmlakı satılmış, məbləğ məscidin fonduna keçirilmişdir. Rus şair, yazıçı və afrikaşünası Nikolay Qumilyov Misirə səyahətindən sonra bu ölkə haqqında silsilə şeirlər yazmışdır. «Misir» şeiri də bunlardan biridir.

Sultan Həsən məscidi ayrı-ayrı vaxtlarda qarətlərə məruz qalmış, oyma işləməli qapıları, fontanı başqa məscidlər tərəfindən oğurlanmışdır. Sultan Həsən məscidinin mənə ən maraqlı gələn yeri havaya açılan baca-pəncərəsi oldu. Elə bil səmaya quyu qazılmışdı, elə quyu enliyində də olardı, amma dərin deyildi. Mən birinci dəfə idi ki, məsciddə belə bir şey görürdüm.

Məhəmməd Əli məscidinin adı isə qala ilə qoşa çəkilir və düşünüldüyü kimi, şəhərin özünəməxsus emblemi ola bilmişdir.

Məscid XIX əsrin ortalarında Məhəmməd Əli Paşanın göstərişi ilə onun böyük oglu Tusun Paşanın şərəfinə ucaldılmışdır. Özəlliyi divarlarının kaymaq daşı (alebastr) ilə üzlənməsindədir. Layihəsini türk-yunan əsilli arxitektor Yusef Boşna Vizantiya üslubunda vermişdir. Qaydaya görə, məscidi tikdirən şəxsin elə son mənzili də daxilində qərar tutur. Məhəmməd Əli Paşa da itirdiyi oğlunun xatirəsinə inşa etdirdiyi tikilinin dərinliyində sarkovaq içərisində əbədi yuxuya getmişdir.

Misirin tarixində böyük islahatçı kimi qalan Məhəmməd Əli Misirin on ən məşhur adamları siyahısındadır, məhz onun dövründə Qahirə paytaxt görkəmi almağa başlamışdır. Dünyada o qədər də tanınmamasının «günah»ını isə özünə Məhəmməd Əli təxəllüsü götürən məşhur boksçu Kasius Kleydə axtarırlar. Bu məscid qalanın, daha doğrusu, bütün Qahirənin ən yüksək nöqtəsində yerləşir. İti uclu, Osmanlı üslubunda olan minarələri, bu minarələrin bəzəkli şərəfələri (azan oxunan eyvanları), gözəl döşənmiş daxili həyəti ilə yadda qalır. İslamiyyətdə ilk minarə də elə Qahirədə inşa edilmişdir. Minarə işıq qülləsi deməkdir ki, burada da ruhani işıq anlamındadır.

Dəstəmaz almaq üçün nəzərdə tutulmuş iri hovuzun içərisindəki fontanın özü bir sənət əsəridir, daşdan yonulmuş bəzək əşyasına oxşayır. Elə buna görə də onu rus zərgəri Karl Faberjenin dəbdəbə simvolu olan zərgərlik yumurtasına bənzədirlər.

Fransız kralı Lui Filippin hədiyyəsi olan bəzəkli mis saat məscidin ən görkəmli hissəsində yerləşdirilərək tarixi abidəyə maraqlı dizayn verir. Məhəmməd Əli məscidi bayır tərəfdən eynən İstanbulun Aya Sofya məbədinə, daxildən isə Sultan Əhməd camisinə oxşayır, bəlkə də, memarı türk olduğu üçün şüuraltı Osmanlı üslubunda işlənmişdir.

## NİL

*Misir Nilin hədiyyəsidir.*
***Herodot***

*Bu şehir güzəlse senin yüzünden…*
***Nazim Hikmət***

Neçə gündür burdayıq, Nili ancaq yol keçərkən görmüşük.

Bu gün Nillə yaxından tanışlıq günümüzdür.

Birinci dəfə idi ki, dünyanın ən uzun çayını yaxından görürdüm. Vahəsi yamyaşıl, palmaların, papirusların, nilufərlərin əhatəsində! Özü də yamyaşıl… Kürün Tiflisdən keçən hissəsi kimi mamırlı, zəhər yaşılı yox, zümrüdü

yaşıl, özü də tərtəmiz, göz yaşı kimi dumduru… Misirlilər papirusu günəşin şəfəqlərinə bənzədirlər... Nə gözəl təşbeh, doğrudan da elədir, bundan gözəl təsvir ola bilməz…

Nil Misirin su arteriyası, əsas magistral yoludur. Misirlilər üçün həmişə həyat mənbəyi olmuşdur, böyük bir xalqın taleyində mühüm rol oynamış, demək olar, müqəddəratını həll etmişdir. Adam istər-istəməz «belə quraqlıq bir ölkədə bu cür bərəkətli çay olmasaydı, həyat olardımı?» - kimi sual haqqında düşünür. Sanki Tanrı bu xalqa Nillə xeyir-dua verib. Dörd bir yanı səhralarla əhatə olunmuşdur. Saxaranın toz-torpağının qabağında Nildi ki, əjdaha kimi dayanıb, hamısını dayanmadan udur. Yoxsa bu ölkənin halı necə olardı?

Doğrudan da, Nilin özü xalqa bir cür xidmət edir, sahili bir cür, çayın dibi bir başqa cür… Sahilboyu bitən, cəm halda göy rəngli hasara oxşayan papiruslardan bu gün də bir çox məqsədlərlə istifadə edilir. Suvenir industriyasından tutmuş evlərin damlarını örtməyə qədər…

Qahirə belə gözəl bir yerdə doğulmuşdur, Afrikanın köksünün dərinliyində yerləşən Nil çayı bu şəhəri Ağ Nil və Mavi Nil kimi gözəl adları olan iki ana qolu ilə qucaqlayır, bu iki qolun birləşməsi Böyük Nili əmələ gətirir. O da, öz başlanğıcını Uqandanın Viktoriya gölündən götürür və altı min yeddi yüz kilometr məsafə qət edərək Aralıq dənizinə qədər aparır. Orada 160 kv.m həcmi olan deltaya çevrilib dənizə tökülür. Nilin deltası dünyadakı bütün çayların deltasından böyükdür və eyni zamanda, məhsuldardır.

Çaylar dənizlərin anası sayılır. Elə şəhər var ki, nə çayı var, nə dənizi, elə qupquru bir yaşayış yeridir. Belə şəhərlər sulu şəhərlərdən fərqlənirlər. Elə bil yetimdirlər, sığınacaq, söykənəcək bir yerləri yoxdur…

Qahirə kimi şəhərə elə bu cür çay yaraşır. Böyük, əzəmətli, dəli-dolu...

Nil Afrika qitəsinin üçdən birini tutur. On ölkənin ərazisindən keçsə də (buna görə tranzit çay adlanır), ən çox Misirə aiddir. Alimlər elə ilk insanların da, sivilizasiyanın da Nilin başlandığı yerdə - Uqandada yarandığını düşünürlər. Nahaq yerə deyil ki, Uqandaya məftun olan Uinston Çörçill demişdi: «Yaşıl mirvari olmur? Bunu deyən yanılır. Bax, Uqanda əsl yaşıl mirvaridir».

Nilin adı böyük, müqəddəs sözləri ilə qoşa çəkilir. Böyük Nil! Müqəddəs Nil!

Nil həm də önəmli su nəqliyyat yoludur, qədim misirlilər öz məşhur piramidalarının daşlarını da sallar vasitəsilə Nildən keçirib daşımışlar.

1971-ci ildə Nilin üzərində «Misirin yeni möcüzəsi» adlandırılan məşhur Asuan bəndi və SES tikilmişdir. Bu bəndin tikilməsindən sonra Nilin daşmasının qarşısı alınmışdır.

Mütəxəssislərin hesablamalarına görə, bəndin tikilişinə sərf edilən tikinti materialları ilə Xeopsun on yeddi piramidasını yenidən qaldırmaq olardı.

Nil öz zəngin flora və faunasını bu gün də qoruyub saxlayır.

Yaşıl Nil timsahının uzunluğu on metrə çatır. Yerli camaat danışır ki, isti havalarda timsahlar quruya çıxıb bizim bayaq keçdiyimiz yerlərdə saatlarla günəşin altında yatıb-mürgüləyirlər, özlərini günə verirlər, çünki günəşə çox böyük ehtiyac duyurlar. Saatlarla gözləri yumulu, eyni vəziyyətdə tərpənməz qala bildiklərinə baxmayaraq, dünyanın ən hərəkətli, «canavar» heyvanlarıdır. Bu sahillərdə timsahlarla bərabər, qippopotama, şirə də rast gəlmək olar. Nilin sularının diriltdiyi, münbitləşdirdiyi torpaqlar nadir palmalarla, mavi zanbaqlarla zəngindir, buralarda seyrə çıxan zürafə, antilop bu gözəl sahillərə həm yaraşıqdır, həm də yaraşır.

Nil nadir balıqlarla zəngindir.

Dünyanın əzəmətli çaylarından olan Nildə hər şey böyükdür, qabaritlidir, diqqətəşayandır. Bəndi də, beş metr hündürlüyündə papirusu da, on metr uzunluğunda timsahı da, iki metrə çatan balığı da…

Sən belə imişsən, Nil…

Yaşa Nil, həmişə axdığın kimi ax, axdığın yerlərə həyat, can ver, həmişə də belə gözəl qal...

## QƏSR ƏL-NİL

*Vakitlərdən bir aqustos axşamıdır, rüzgarların*
*ən fərəhlisi səndən əsiyor.*
***(Adını unutduğum müəllifdən…)***

Nilin iki yaxasını, sağ və sol sahilini bir-birinə bağlayan körpü Qəsr Əl-Nil (Nilin qəsri) adlanır və Nil üzərindəki körpülərdən ən işləyi, ən qələbəlisi, ən gurultulusudur. 1872-ci ildə ingilislər tərəfindən tikilmiş bu körpünün altından ən böyük və hündür gəmilər də rahatlıqla üzüb keçir. Çünki körpünün tən ortası üç dəqiqə müddətinə aralanıb gəmilərə yol verə bilir. Körpünün girişində və çıxışında iki cüt şir keşik çəkir, daha doğrusu, çəhrayıya çalan qranit sütunlar üzərində oturmuş dörd şir heykəli sanki bu gözəl körpünü və altından axan müqəddəs Nili qoruyur. Qəsr Əl-Nilin ayıq-sayıq keşikçilərinin memarı tanınmış fransız heykəltəraşıdır. 1932 metr uzunluqda olan «Nil Qəsri»nin emblemi Qahirə şirləridir, öz məğrur görkəmləri ilə körpüyə girib-çıxanları salamlayıb yola salırlar. Qəsr Əl-Nil körpüsü Qahirənin zəngin memarlıq xəzinəsinin ayrılmaz tərkib hissəsidir. Gecə körpü illüminasiya effektləri ilə işıqlandırılanda insan bu gözəllikdən doymaq üçün iki göz də əlavə almaq istəyir. Elə bizə də bu körpüdə düşüb ətrafı seyr etmək günün batabatında qismət oldu. Əslində bu körpüdən belədən-belə, elədən-elə çox keçmişdik, onsuz da hara getsən, yolun buradan keçir, Qahirədə bütün yollar «Qəsr Əl-Nil»ə aparır. Amma bir dəfə düşüb gəzdik.

Körpünün enli səkiləri burada rahat gəzməyə, açılan gözəl mənzərəni tələsmədən seyr etməyə, xırda ticarətçilərə öz alverlərini arxayınlıqla etməyə imkan verir.

«Qəsr Əl-Nil» şəhərin görməli yerlərinin ön sırasındadır. Körpülər artıq çoxdan öz texniki funksiyalarını yerinə yetirməkdən əlavə gözəllik, dizayn nümayiş etdirirlər.

Axşamlar körpüdən yerli əhali də, gəlmələr də bulvar, korniş kimi istifadə edirlər. Körpülər həm də dünyanın ən romantik yerlərindəndir, xüsusilə günəş batanda… Günəşi qarşılamaq nə qədər xoşdursa, yola salmaq, bu prosesi izləmək bir o qədər qüssəlidir, bir neçə saatdan sonra təkrar qarşılayacaq olsan belə…

## QAHİRƏ YENİ OXUNUŞDA

Yeni Qahirə əsas Qahirənin əhalisini bir az seyrəltmək məqsədi ilə ölkə prezidentinin fərmanına əsasən, 2000-ci ildə yaradılmışdır. Otuz min hektar sahəsi olan, dəniz səviyyəsindən üç yüz metr hündürlükdə salınan Yeni Qahirə beş milyon insanı yerləşdirmək üçün nəzərdə tutulmuşdur. (Qoy, qoca şəhər bir az «kafa dinləsin»). Yeni Qahirənin şəhər kimi yeni formalaşması, hündürlükdə yerləşməsi, əhalinin azlığı burada havanın təmiz və sərin olmasını təmin edir. Tədricən bütün dövlət idarələrinin və səfirliklərin buraya köçürülməsi nəzərdə tutulur.

Yeni Qahirə kiçik Dubaydır!

Şərq şəhəri yeni quruluşda!

Geniş, tərtəmiz yuyulmuş ərazisi, modern binaları, hər axşam musiqili şou göstərən rəngli fəvvarələri, dekorasiyaları, müxtəlif əyləncələri ilə Dubayı xatırlatdı mənə… Festival City Mool da Dubay Moolu… Fəvvarənin dövrəsi amfiteatr formasında düzəldilmişdi, axşam düşər-düşməz insanlar bu pilləkənlərdə yer tutmağa çalışır, qeyri-adi su şousunu izləməyə hazırlaşırdılar.

Yeni Qahirə Misirin özünütəsdiqi, dünyaya «istəsəm, hamıdan yaxşı bacararam» cavabı, brendidir. Yeni və köhnə Qahirə bir medalın iki üzüdür, bir üzü qədim, işlənmiş, yerin dərin qatlarından çıxarılmış, pas atmış, digər üzü təptəzə, sürtülüb parıldadılmış kimidir. Yeni Qahirə Misirin Yeni gələcəyidir.

Yeni Qahirədə əsasən «yeni qahirəlilər» yaşayır. Burada gözəl, bahalı villalardan ibarət compoundlar, türklər demiş, sitələr salınmışdır və ancaq çox zəngin insanlar buradan ev ala bilərlər.

Yeni Qahirə Avropanın ən müasir, dəbli, zövqlü şəhərlərini də kölgədə qoya bilər. Burada sanki ay da bir başqa cür doğur, halbuki inkişaf etməkdə olan yeni meqapolisi köhnəsi ilə yarım saatlıq məsafə ayırır.

İnsanın təbiəti belədir, yaxşıya tez alışır, New Cairodan köhnəsinə heç qayıtmaq istəmirdik, elə bil bura heç Afrika deyildi… İnsan əli nələrə qadirdir... Piramidalar ölkəsi bunu hər kəsdən qabaq bilir, bacarır və sübut edir. Köhnə Qahirə gəzmək, görmək üçün maraqlıdır, yaşamaq üçün isə insana normal şərait, təmiz hava lazımdır.

Festival City Moll hər iki Qahirənin ən böyük ticarət mərkəzidir. «Festival» hər bir qonağına komfortlu istirahət, maraqlı əyləncələr, hər cibə uyğun alış-veriş təklif edir. Bura qahirəlilərin və şəhərin qonaqlarının ən sevimli istirahət yeridir.

## *EHRAMLAR VƏ BÖYÜK SFİNKS*

Misir səyahətimizin son dayanacağı əfsanəvi Misir ehramları oldu.

Səyahətimizin son akkordu...

Əl-Gizə fironlar vadisidir. Vur-tut dörd min beş yüz il əvvəl bura ətrafdakı səhralardan heç nə ilə fərqlənməyən ürəksıxıcı boş sahə, qəmli-qüssəli düzəngah idi. İndi buranı üç nəhəng həndəsi fiqur bəzəyir. Burada ilk əvvəl firon Xeopsun əmri ilə tarixə Xeops ehramı kimi düşəcək ən böyük ehram qaldırılmışdı. Sonra oğlu Xefren də ailə dinastiyasına sadiq qalaraq öz şərəfinə daha bir ehram ucaltmış, onun oğlu da ənənəni davam etdirərək üçüncü piramidanı tarixə bağışlamışdır. Xeopsun ehramı dünyada ən böyük qəbirüstü abidə hesab edilir.

Piramidaların tikiliş prosesini əks etdirən yeganə yazılı mənbə Herodotun «Tarix» kitabıdır. Herodota görə, Xeops ehramının tikilişində yüz min adam iştirak etmişdir.

Eramızdan əvvəl 2470-ci il iyirmi üç avqust Misirdə rəsmi olaraq Xeops ehramının tikintisi başlayan gün kimi qəbul edilmişdir. Həmin günü Misir xalqı bayram edir. 2540-cı ildə bu ehramın son daşı qoyulmuşdur.

Lakin hələ də, bu səhra kompleksin - ehramların və onların keşikçisi Böyük Sfinksin ərsəyə gəlməsi zamanı həyatlarını bu daş parçaları altında itirən qədim misirlilərin təxmini olsa da sayı müəyyənləşdirilməmişdir.

Xeops ehramının tikintisinə hər birinin çəkisi iki min səkkiz yüz kiloqram olan 2,3 milyon daş blok sərf olunmuşdur. Ehramın ümumi çəkisi beş milyon tondur, böyük bir radiusu - beş hektar ərazini əhatə edir. Piramidanı öz ağırlığı yerin altına aparmasın deyə, bünövrəni ən möhkəm qaya üzərində və dünyanın ağırlıq mərkəzinin tam ortasında qoymuşdular. Belə qəbul olunub

ki, hər hansı bir dünya miqyaslı tikiliyə qiymət verərkən onun yaşının onsuz da Xeops ehramını keçməyəcəyi ilə vurğulanır. Xeops ehramı əbədiliyin, möhkəmliyin kriteriyası, lideri, simvoludur. «Saxlama müddəti» sonsuzluğa qədərdir!

Hər cür kəsik, yanıq, yaraların piramidaların içərisində sürətlə sağalması, bitkilərin sürətlə böyüməsi faktları da Gizə səhrasının sehrlərindəndir.

Bu piramidanın eskizinin Firon Xeops tərəfindən tərtib edilib-edilməməsi naməlum qalsa da, bunun mümkünlüyü versiyası da qəbul edilmişdir. Xeops ehramının yaşı haradasa dörd min beş yüz il müəyyən edilir. Qədim Misirdə ali idarəetmə fironlara aid idi. Fironlara sağlıqlarında da, ölümlərindən sonra da allah kimi baxılır, sitayiş edilirdi.

Gecə seansları zamanı ehramlar və Böyük Sfinks lazerlə işıqlandırılır. Burada açıq havada tamaşa zalı da təşkil olunub. Gecə seansları çox bahadır.

Qədim Misir mifologiyasının qoruyucu tanrısı Sfinksin heykəli Gizə səhrasının qəlbinin özəyində, piramidaların qonşuluğunda, Nil çayının sahilində yerləşir…

Piramidalara baxdıqca-baxıb doyduqdan sonra getdik Böyük Sfinksin ziyarətinə!

Sfinksin monumenti monolit qaya parçasından yonulmuşdur, Misir mifologiyasına görə şir bədənli, insan başlı bu məxluq qaranlıq, sirli-sehirli, fövqəltəbii qüvvələri özündə birləşdirir. Yetmiş iki metr uzunluğunda, iyirmi metr hündürlüyündə olan bu qaya heykəl riyazi proporsiyalarla işlənmişdir. Çəkisi praktik desək, əlli ədəd «Boinq» təyyarəsinin kütləsinə bərabərdir. Sfinksin adının yanında daş bədheybət kəlməsi işlənsə də, o mənə heç də bədheybət kimi gəlmədi, əksinə, çox xoş fakturası vardı, elə bil üzündə təbəssümə bənzər bir ifadə donub qalmışdı.

Birinci dəfə Böyük Sfinks eramızdan əvvəl XV əsrdə torpağın altından çıxarılıb bərpa edilmişdir. Lakin sonra nə düşünüb-daşınıblarsa, yenidən torpağa gömüblər. 1850-ci ildə Sfinks təkrar yerin altından hissə-hissə çıxarılmağa başlanmışdır, əvvəlcə döşə qədər, sonra isə tamamilə… Oqyüst Mariett onu şəxsən təmizləmişdir. Təmir, bərpa işlərindən sonra Sfinks bir də 1920-ci ildə gün üzü görmüşdür. Bu günə qədər də öz yerində növbə çəkir, ona əmanət ediləni məsuliyyətlə qoruyur. Böyük Sfinks yer üzündəki ən qədim heykəldir. Onu məşhuri-cahan edən faktorlardan biri də ətrafında çoxlu sayda miflərin, əfsanələrin dolaşmasıdır.

Ən geniş yayılan əfsanə isə Sfinksin məşhur tapmacasıdır. Uçurumun kənarında oturub yoldan ötənlərə bu sualı verir: «O kimdir ki, səhər dörd ayağı ustdə gəzir, günorta iki, axşam isə üç?»

Cavab verə bilməyənləri dərhal öldürür. Ancaq gələcəyin çarı Edip bu sualın cavabını tapır: «O insandır ki, körpəlikdə dörd əl-ayağı üstündə iməkləyir, böyüyəndə iki ayağı üstdə gəzir, qocalanda isə çəlik üçüncü ayağı olur». Düzgün cavabı eşidən Sfinks özünü uçurumdan dənizə atıb məhv olur.

## MİSİRƏ VİDA

*Bitdi deyə kədərlənmə, yaşandı deyə sevin.*
***Qabriel Qarsia Markes***

Misirin doxsan beş faiz sahəsini səhralar tutur, əhali ərazinin cəmi beş faizində yaşayır. Coğrafi cəhətdən əlverişsiz mövqedə yerləşən ölkəni quraqlıq, tez-tez baş verən zəlzələlər, sürüşmələr, daşqınlar, yazda aman

verməyən xəmsin küləkləri, səhranın qum fırtınaları yaşamaq üçün bəzən təhlükəli hala gətirir. Misirin sərhədləri iki rənglidir, qızılı-sarı dedikdə səhralar, yaşıl-zümrüdü dedikdə isə Nil çayı nəzərdə tutulur. Aralıq dənizi və Qırmızı dəniz isə bu ölkənin mavi zolaqlarıdır.

Urbanizasiya zəif gedir, əhalinin böyük əksəriyyəti kəndlərdə yaşayır.

Rəsmi statistikaya görə, bu məmləkətdə doğum çox, ölüm göstəricisi isə azdır. Əhalinin çox hissəsi savadsızdır, xüsusilə qadınlar… Burada rəqəm doxsan faizə çatır. Bütövlükdə Misirin cəmi dörd faizi ali təhsillidir. Aha, dayan! Elementar, Vatson! Hə, demək problemlərin kökünü burada axtarmaq lazım imiş… Doğrudan da, oxumaq işıq, savadsızlıq zülmət imiş.

«Savadlı adamla savadsız adamın fərqi diri ilə ölünün fərqinə bənzəyir». (Eramızdan əvvəl IV əsr, Aristotel)

Bu, olduqca acınacaqlı bir haldır. Bilirsiniz niyə? Çünki dünyada ilk Universitet Misirdə yaranmışdır. Sonra xristian ağzıgöyçəklər müsəlman Şərqinin üstünə bazar adamı adını qoymasınlar, terrorçu damğasını vurmasınlar… 971-ci ildən bu günə kimi Qahirədə Əl-Əzhər Müsəlman Universiteti fəaliyyət göstərir. Universitet öz işinə əvvəlcə Əl-Əzhər məscidinin nəzdində mədrəsə kimi başlamışdı. Hətta ilk vaxtlar dərslər məscidin həyətində keçirilirdi. Şəhərin ən qədim məscidi hesab olunur və İslam Qahirəsinin lap mərkəzində yerləşir. Əzhər məscidinin binası İslam arxitekturasının şedevrlərindəndir. 969-cu ildə yaranmış bu məscıd elə yeni salınmış Qahirə ilə qoşa ucalmağa başlamışdır. XIII əsrdən bəri camidə kitabxana da fəaliyyət göstərir. Qahirənin hər bir hökmdarı bir qayda olaraq Əl-Əzhər məscidi üçün öz minarə payını inşa etdirmişdir.

Fatimilər dinastiyası dövründə əsası qoyulan ilahiyyat universitetində dini elmlərlə bərabər mühəndislik, hüquq, məntiq, tibb fakültələri də vardır. Bu universitet tibb fakültəsinin tələbələrinin rahat təcrübə keçə bilmələri üçün eyni adlı özəl xəstəxanaya da malikdir. Yataqxanaları ilə bərabər, şəxsi televiziya kanalına da sahibdir. Buranın rəhbəri rektor deyil, şeyx adlanır. Əl-Əzhər dinin və təhsilin ittifaqının sübutudur! Qədimliyin və müasirliyin tandemi olduğu kimi!

Əl-Əzhər Universiteti dünya miqyasında prestijli universitet olub Misirin qürurudur.

Ölkənin fəxri kimi konstitusiyasında da qeyd olunur. Bu gün Universitetin əllidən çox fakültəsində dünyanın yüz ölkəsindən artıq tələbə təhsil alır. Əzhər Universitetinin diplomu dünya ölkələrində qəbul ediləndir, beynəlxalqdır. Təhsil həm yerlilər, həm xaricilər üçün pulsuzdur. Ən başlıcası isə Əzhər Universiteti avtoritetli, sözükeçən, qüvvətli, qüdrətli, müstəqil bir irfan ocağıdır. Yeri gəldikdə, hətta Misir hökumətinə etiraz belə etmək iqtidarındadır.

Bu da avqustun iyirmi ikisi... Misirə əlvida demək vaxtı çatdı...